IMPERIAL BRANDS



# DAHA GÜCLÜ, DAHA YAXŞI VƏ BIRLIKDƏ

## SIZ BUNU NECƏ EDIRSINIZ

# MÜNDƏRICAT


- BIZIM DAVRANIŞLARIMIZ
- GIRIŞ
- KODEKSIN ƏHƏMIYYƏTI VƏ TƏTBIQI QAYDASI
- DAVRANIŞ KODEKSINƏ NECƏ ƏMƏL EDIRIK
- İŞÇILƏRIMIZ
- ŞIRKƏTIMIZ
- MÜŞTƏRILƏRIMIZ VƏ TƏCHIZATÇILARIMIZ
- İCMALARIMIZ


**ƏLAVƏ MƏLUMATLAR**
Bu mövzuya dair əlavə məlumatları tapmaq üçün bu düymədən istifadə edin.

**SUALLAR VƏ CAVABLAR**
Sualları və cavabları buradan əldə edə bilərsiniz.

**ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN**
Bu işarənin üzərinə klik etməklə öz nəzər nöqtənizi bildirmək barədə ətraflı məlumat əldə edə bilərsiniz.

# BIZIM DAVRANIŞLARIMIZ





**Müştəri**
ilə başlayın



**Qarşına məqsəd qoyaraq**
əməkdaşlıq edin



**İnamla**
məsuliyyət götürün



Səmimi olun,
**heç kimi kənarda qoymayın**



**Gələcəyimizi**
qurun



## **Müştəri** ilə başlayın

- Etdiyimiz hər şey nəzərimizdəki müştəri ilə başlayır
- Müştəriləri anlamağı öz peşənə çevir
- Kəskin seçimlər et: maraqlan, suallar ver, fakt və məlumatlardan istifadə et, öz fikrini sınaqdan keçirmək üçün alternativ fikirləri öyrən
- Qərar verən zaman məlumat və intuisiyalarınızı, o cümlədən instinkt və təcrübənizi birləşdirin
- Gördüyünüz işi keyfiyyətlə görün

**Təməl yanaşma**

Etdiyimiz hər şey ondan başlayır istehlakçı - biz onlara görə buradayıq

Müştərilərimizi tanımaq gələcək uğurlara yol açmaq üçün şərtdir

Düzgün qərarlar məlumat, intuisiya və təcrübə birləşdikdə verilir



## **Qarşına məqsəd qoyaraq** əməkdaşlıq edin

- Öz bilik və təcrübələrinizi digərləri ilə bölüşün
- Həmkarlarınızı dinləyin və onların ekspertizasına hörmət edin
- Diktə etməyin, təsir edin
- Digərlərinə inanın: hər şeyə nəzarət etməli deyilsiniz
- Yerli gündəlikləri IMB ehtiyacları ilə tarazlaşdırın (böyük mənzərəni nəzərinizdə saxlayın)
- Daxildə deyil, xaricdə rəqabət aparın

**Təməl yanaşma**

Digərlərinin uğurlu olmasına yardım etmək işimin bir hissəsidir

Hər şeyə nəzarət etməli deyiləm

Digərləri ilə əməkdaşlıq etmək hamımız üçün daha yaxşı nəticə gətirəcəkdir



## **İnamla** məsuliyyət götürün

- Cavabdeh olun və digərlərini cavabdeh tutun
- Vədinizi yerinə yetirin
- Diqqətinizi daim razılaşdırılmış prioritetlərə cəmləyin
- Artıq önəmli olmayan məsələləri buraxın
- Məhsuldar şəkildə meydan oxuyun və özünüzü sorğulamağa açıq olun
- Digərlərini günahlandırmayın

**Təməl yanaşma**

Öhdəlik öhdəlikdir

Fikrimi bildirə bilərəm

Düzgün addım atdıqda töhfəm ədalətli şəkildə qiymətləndirilir



## Səmimi olun, **heç kimi kənarda qoymayın**

- İnsanları qarşılamaq üçün vaxt ayırın
- Digərlərinin gətirdiklərini qəbul edin və qiymətləndirin
- İstisna olmadan bir-birinizin qeydinə qalın
- Fərqləri güc kimi qeyd edin
- Əsl üzünüzü göstərin
- Gərgin söhbətlərə dürüstülk, səmimilik və təvazökarlıq gətirin

**Təməl yanaşma**

Məni qəbul edirlər

Mən dəyərliyəm

Nə qədər çox müxtəlif olsaq, biznesimiz o qədər güclü olacaq



## **Gələcəyimizi** qurun

- Gələcək imkan və çətinlikləri proqnozlaşdırın
- Hər zaman bir addım öndə olun
- Uzunmüddətli performans və qısamüddətli təhvil-təslim arasında tarazlıq qurun
- Hər şeyi yaxşılaşdırmağa çalışın
- Dəyişiklikləri qəbul edin və innovasiyanı xoş qarşılayın: yenilikləri sınamağa və uğursuzluqlarınızdan dərs çıxarmağa açıq olun

**Təməl yanaşma**

Mən uğurlu olacağımıza inanıram

Yenilikləri sınaqdan keçirmək vacibdir

Uğursuzluqlarımızdan dərs çıxarmaqla uğurlu olmağı öyrənirik

# ƏZIZ
# HƏMKAR

MƏSULIYYƏTLI FƏALIYYƏT ETIBARLI TƏRƏFDAŞ VƏ ŞIRKƏT OLARAQ QLOBAL NÜFUZUMUZUN TƏMIN EDILMƏSI BAXIMINDAN MÜHÜM ƏHƏMIYYƏT KƏSB EDIR. BIZ ÖZ DƏYƏRLƏRIMIZ HAQQINDA DANIŞARKƏN “GÖRDÜYÜMÜZ IŞLƏRDƏN QÜRUR DUYURUQ”. MƏSULIYYƏTLI FƏALIYYƏT VƏ INTEQRASIYA UĞURLU BIZNESIN YARADILMASI VƏ DAVAMLILIĞININ TƏMIN EDILMƏSINDƏ BIZƏ KÖMƏK ETMIŞDIR”



Bazarlarda üzləşdiyimiz mürəkkəb problemlər və dünya miqyaslı nüfuzumuz bizim daima diqqət altında olduğumuzu göstərir. Biz ziddiyyətlərin mövcud olduğu bazarda fəaliyyət göstərə bilərik, lakin həyata keçirdiyimiz işlər heç vaxt ziddiyyət predmetinə çevrilməməlidir.

Birgə və fərdi fəaliyyətlər istehlakçılar, müştərilər, maraqlı tərəflər, icmalar və hökumətlər qarşısında qazandığımız nüfuza güclü təsir göstərə bilər. Qloballaşan dünyada bütün fəaliyyətlərimizin buna uyğun şəkildə aparılmasını təmin etmək heç vaxt bu qədər əhəmiyyətli olmamışdır.

Düzəliş edilmiş Davranış Kodeksimiz (Kodeks) uzunmüddətli davamlılıq üçün mühüm əhəmiyyət kəsb edir və İmperial Brands-in harada olmasından asılı olmayaraq bizim sərgiləməli olduğumuz bütün davranış standartları göstərilir. Sözügedən kodeksdə göstərilmiş standartlara riayət etmə biznes strategiyasının uğurlu olmasını təmin edir, buna görə zəhmət olmasa, kodeksi oxuyun və onu tam aydın başa düşün.

**Stefan Bomhard**
Baş İcraçı

# KODEKSIN ƏHƏMIYYƏTI VƏ TƏTBIQI QAYDASI



## BIRLIKDƏ DAHA GÜCLÜ FƏALIYYƏT

Biz birlikdə işləməklə öz biznesimizi qurmuşuq.

Dəyərlərimiz kodeksin əsasını təşkil edir. Dəyərlərimiz və davranış kodeksi birlikdə düzgün qərarların verilməsinə kömək edir. Kodeks müxtəlif vəziyyətlərin öhdəsindən gəlməkdə bizə kömək edir.

ƏLAVƏ MƏLUMATLAR

SUALLAR VƏ CAVABLAR

ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

## KODEKSƏ RIAYƏT EDILMƏSI

Bütün işçilərimiz kodeksə riayət etməlidirlər. Bizimlə işləyən insanlar kodeks ilə tanış olmalı və şirkətimizin adından çıxış edərkən ona riayət etməlidir.

Kodeksə daxil olan bölmələr bunlardır: **Bizim İşçilərimiz**, **Bizim Şirkətimiz**, **Bizim Müştərilərimiz və Təchizatçılarımız** və **Bizim İcmalar**.

## ÖHDƏLIKLƏRIMIZ

Hər birimiz inteqrasiyanı, birgə işi və inamı təşviq edən iş mühitinin yaradılmasında iştirak etməliyik. Hər birimiz aşağıdakılara görə məsuliyyət daşıyırıq:

- Qanunvericiliyə və kodeksə riayət etmə və etibarlı fəaliyyət göstərmək
- Hər bir kəsə hörmətlə yanaşma, açıq ünsiyyətin stimullaşdırılması və qərarlarımızın başqalarına necə təsir etməsi haqqında düşünmə
- Suallar verməklə, narahatlıqları bildirməklə inamın yaradılması.

## MENECERLƏRIN ÖHDƏLIKLƏRI

Menecerlər aşağıdakılara görə məsuliyyət daşıyır:

- Kodekslə bağlı məlumatların paylaşılması və onun izah edilməsi
- İşçilərin kodeksi başa düşdüyündən əmin olmaq
- Kodeksə riayət edilməsində nümunəvilik
- İşçiləri aual verməyə, narahatlıqlarını ifadə etməyə və öz nəzər nöqtələrini bildirməyə həvəsləndirmək. Belə olan hallarda menecerlər insanların suallarına diqqətlə qulaq asmalı və müvafiq addım atmalıdır.

**SƏMIMI OLUN, HEÇ KIMI KƏNARDA QOYMAYIN**

Gərgin söhbətlərə dürüstülk, səmimilik və təvazökarlıq gətirin

# ETIK QƏRARLARIN VERILMƏSI

Qərarlar ədalətli olmalıdır. Hər hansı fəaliyyət üzrə nə tədbir görməli olduğunuz barədə narahatlıq yaradan məqam olarsa özünüzdən aşağıdakı sualları verin:




## KÖMƏK ISTƏMƏYIN VƏ ÖZ NƏZƏR NÖQTƏNIZI IFADƏ ETMƏYIN ƏHƏMIYYƏTI

Öz fikirlərimizi və narahatlıqlarımızı paylaşmaqla biz daha da təkmilləşə bilərik. Biz təhlükəli vəziyyətləri və ya qeyri-düzgün davranışları insanlara bildirməklə risklərin sayını azalda və problemləri həll edə bilərik.

Əgər qanunun və ya kodeksin pozulmasından şübhələnirsinizsə öz narahatlığınızı ifadə etməlisiniz. Siz bu barədə aşağıdakı şəxslərə məlumat verə bilərsiniz:

- Menecer
- İnsan resursları
- İdarəetmə heyəti
- Hüquq məsləhətçisi və ya hüquq qrupu
- Şirkətin katibi.

Şirkət daxilində rahat ünsiyyət qura bilmədikdə siz **Öz nəzər nöqtənizi ifadə edin** xidmətindən istifadə etməklə narahatlıqlarınızı ifadə edə bilərsiniz.

## QISAS ALINMASINA ICAZƏ VERILMƏMƏSI

Biz kodeksin pozulmasına görə şübhə doğuran hər hansı şəxsə qarşı qisas tədbirin görülməsinə yol vermirik. Bu kimi hallar nizam-intizamın pozulmasına səbəb olmaqla işdən çıxarılma ilə nəticələnə bilər.

# DAVRANIŞ KODEKSINƏ NECƏ ƏMƏL EDIRIK

## İDARƏETMƏ

Biz “üç müdafiə xətti” modeli ilə uyğunlaşdırılmış kompleks idarəetmə yanaşmasından istifadə edirik. Biz kodeksə, strategiyalara və standartlara, qanun və qaydalara riayət etmək üçün müvafiq metodiki kömək, təlim və alətləri təmin edirik.

Şirkətin Katibi idarəetmə strukturlarına və fəaliyyətlərə nəzarət edilməsinə görə məsuliyyət daşıyır. İdarəetmə Heyəti tərəfindən dəstəklənən Katib “ikinci xətt” üzrə fəaliyyət göstərən təkmilləşdirmə mərkəzləri ilə çalışaraq kodeksin şirkət daxilində hamı tərəfindən aydın başa düşülməsini təmin edir.

**İNAMLA MƏSULIYYƏT GÖTÜRÜN**

Cavabdeh olun və digərlərini cavabdeh tutun

## ARAŞDIRMALAR

Biz davamlı olaraq narahatlıqların aradan qaldırılmasını təmin edirik.Bütün araşdırmalar hüquqi öhdəliklərimizə uyğun olaraq aparılır.

## İNTIZAM TƏNBEHI

Davranış kodeksini pozan şəxslər tənbeh edilə və işdən çıxarıla bilər. Qanunvericliyin pozulması məhkəmə və digər dövlət orqanı tərəfindən müəyyən edilmiş cərimələrin tətbiqi ilə nəticələnə bilər.





# İŞÇILƏRIMIZ ILƏ BIRLIKDƏ DAHA GÜCLÜ VƏ DAHA YAXŞI OLURUQ

BIZIMLƏ IŞLƏYƏN INSANLARA GÜCLÜ TƏSIR GÖSTƏRIRIK. BIZ HƏMIŞƏ INTEQRASIYANI, BIRGƏ IŞI, MÜXTƏLIFLIYI VƏ INAMI TƏŞVIQ EDƏN IŞ MÜHITINI YARATMAĞA ÇALIŞIRIQ.

**10** | Müxtəlifliyin və iştirakın qiymətləndirilməsi və qısnamanın qarşısının alınması

**11** | Sağlam və təhlükəsiz iş yerinin təşviq edilməsi

**12** | İnsan hüquqlarına hörmətlə yanaşma

**13** | Sosial mediadan məsuliyyətli şəkildə istifadə etmək



## İŞÇILƏR DƏ INSANDIR

Biz insanları olduğun kimi qəbul edirik və yaşından, irqindən, mənşəyindən, cinsindən, cinsi oriyentasiyasından, əlilliyindən, siyasi baxışlarından, dinindən, ailə vəziyyətindən, fiziki və ya psixi sağlamlığından asılı olmayaraq hər kəsə hörmətlə yanaşırıq.


ƏLAVƏ MƏLUMATLAR
SUALLAR VƏ CAVABLAR
ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN


# MÜXTƏLIFLIYIN VƏ IŞTIRAKIN QIYMƏTLƏNDIRILMƏSI VƏ QISNAMANIN QARŞISININ ALINMASI

BIZ HƏR BIR KƏSƏ HÖRMƏTLƏ YANAŞIRIQ. BIZ INSANLARI OLDUĞU KIMI QƏBUL EDIRIK.

## BU, NƏYƏ GÖRƏ ƏHƏMIYYƏTLIDIR

Birlikdə daha yaxşı işləmək o deməkdir ki, biz insanların fikirlərinə və düşüncələrinə hörmət edirik. Müxtəlif qrupların birgə işləməsi uğurlu perspektivlərin yaranması ilə nəticələnir.

**SƏMIMI OLUN, HEÇ KIMI KƏNARDA QOYMAYIN**

Digərlərinin gətirdiklərini qəbul edin və qiymətləndirin

## BIZ NƏYI EDIRIK

- Bərabər imkanları təmin edən və qüvvədə olan əmək qanunvericiliyinin tələblərinə riayət edən ədalətli, təhlükəsiz və qanuni iş mühitini yaradırıq
- Ölkələrdə mövcud olan şuralar, məşğulluq ittifaqları və işçi birlikləri ilə əməkdaşlıq edirik
- Mədəniyyətindən, inanclarından və həyat tərzlərindən asılı olamayaraq hər kəsə hörmətlə yanaşırıq.

## BIZ NƏYI ETMIRIK

- Ayrıseçkilik yaratmırıq
- Fərdə və ya qrupa mənfi təsir edən fəaliyyətləri qəbul etmirik
- Qısnama, hədə-qorxu, təhqir və sui-istifadə hallarına yol vermirik
- Pis davranışa qarşı səssiz qalmırıq.



## KƏNARA ÇIXMA

Bizim sağlamlıq və təhlükəsizliklə bağlı standartlarımız çox vaxt qanunvericiliyin tələblərindən kənara çıxır, çünki biz insanların qayğısına ən yaxşı formada qalmaq istəyirik.

ƏLAVƏ MƏLUMATLAR

SUALLAR VƏ CAVABLAR

ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

# SAĞLAM VƏ TƏHLÜKƏSIZ IŞ YERININ TƏŞVIQ EDILMƏSI

BIZ BÜTÜN INSANLAR, BIZNES TƏRƏFDAŞLARI VƏ ƏTRAFIMIZDAKI ICMALAR ÜÇÜN SAĞLAM, TƏHLÜKƏSIZ VƏ MƏHSULDAR IŞ MÜHITININ YARADILMASINA ÇALIŞIRIQ.

## BU, NƏYƏ GÖRƏ ƏHƏMIYYƏTLIDIR

Biz özümüzün və başqalarının qayğısına qalmalıyıq. Bu, pozitiv iş mühitini yaradır.

**İNAMLA MƏSULIYYƏT GÖTÜRÜN**

Cavabdeh olun və digərlərini cavabdeh tutun

## BIZ NƏ EDIRIK

- Özümüzün və başqalarının sağlamlığı və təhlükəsizliyinə görə məsuliyyət daşıyırıq
- İş yerində sağlamlıq və təhlükəsizliklə bağlı bütün prosedurlara riayət edirik
- Təhlükəsizliklə bağlı problem (məsələn: qəza, insident, potensial qəza vəziyyəti və ya pozulma halı), maddə istifadəsi, sui-istifadə halları və ya kobud davranış müşahidə etdikdə və ya bundan şübhələndikdə dərhal öz narahatlığımızı bildiririk.

## BIZ NƏ ETMIRIK

- Spirtli içkilərin təsiri altında işə gəlmirik
- Zorakılıq, təhlükəli davranış və ya fiziki hədə-qorxuya göz yummuruq
- Sağlamlığımızı və təhlükəsizliyimizi risk altına qoyacaq işlər görmürük.



## DOĞRU SEÇIM

**S:** Biz yeni təchizatçı ilə tərəfdaşlıq qurmaq prosesindəyik, lakin onların iş şəraitinin bizim standartlardan aşağı olmasından narahatıq. Təchizatçı bizə söz verib ki, onlarla müqavilə bağlasaq, lazımi dəyişiklikləri edəcəklər. Bu verilmiş vədi nəzərə alaraq, biz tərəfdaşlığa başlaya bilərik?

**C:** Biz təchizatçılarımızdan işçilərinə qarşı ədalətli davranmağı və standartlarımıza və qanuna riayət etmələrini tələb edirik. Bu təchizatçı münasib biznes partnyor ola bilməz. Sizi narahat edən məsələləri İnsan Resursları üzrə Menecer, Qrup Satınalma Şöbəsi və Hüquq Məsləhətçiniz ilə müzakirə etməlisiniz.

ƏLAVƏ MƏLUMATLAR | SUALLAR VƏ CAVABLAR | ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

# İNSAN HÜQUQLARINA HÖRMƏTLƏ YANAŞMA

BIZ ƏMƏKDAŞLARIMIZIN VƏ BIZNESIMIZI DƏSTƏKLƏYƏNLƏRIN TƏHLÜKƏSIZLIYINƏ, LƏYAQƏTINƏ VƏ RIFAHINA DƏYƏR VERIRIK.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Biz bütün əməliyyatlarımızda insan haqqlarını qoruyuruq və öz biznes partnyorlarımızın da eyni şəkildə davranmasını gözləyirik. Bu, nüfuzdan düşmə riskini azaldır və tərəfdaşlığın yaxşılaşdırılmasına təkan verir. Biz öz təchizatçılarımızdan və müvafiq təşkilatlardan beynəlxalq əmək standartlarına uyğun işləməyi tələb edirik.

İnsan haqqlarına hörmət əməkdaşlarımız, xarici nüfuzumuz, tədarük zəncirimizin davamlılığı və iş lisenziyamız üçün əhəmiyyətlidir. Biz ən fundamental insan haqqları ilə yanaşı uşaq əməyi və könülsüz işçi əməyindən istifadə etməmə və birləşmə azadlığı kimi haqqlara hörmət edirik.

## BIZ NƏ EDIRIK

- Əməkdaşlarımızın sağlamlığı, təhlükəsizliyi, ləyaqəti və rifahının qayğısına qalırıq
- Əmək təcrübələrimiz və təlimatlarımıza riayət edirik
- İnsan haqqlarını potensial yeni investisiyalar və birgə müəssisələr çərçivəsində nəzərə alırıq
- Tədarük zənciri standartlarını təkmilləşdirmək üçün təchizatçılarımız ilə birgə işləyirik.

**SƏMIMI OLUN, HEÇ KIMI KƏNARDA QOYMAYIN**

Fərqləri güc kimi qeyd edin

## BIZ NƏ ETMIRIK

- 15 yaşından kiçik və ya minimum yerli əmək yaşı və ya icbari məktəb yaşından kiçik (hansı yüksəkdirsə) hər hansı bir şəxsi işə götürmək
- Təhlükəli işləri yerinə yetirmək üçün 18 yaşından kiçik istənilən şəxsi istismar etmək
- İnsan haqqlarının pozulduğunu görərkən susmaq.



## DOĞRU SEÇIM

**S:** Dostlarım və mən sosial şəbəkələrdə çox aktivik. Biz səfərlərimizin və maceralarımızın şəkillərini və hesabatlarını paylaşırıq. Mən gələn həftə iş ilə bağlı görüşdə iştirak etmək üçün biznes səfərində olacağam. Səfərim zamanı şəkillər və hesabatlar paylaşa bilərəm?

**C:** Siz, səfərdə olarkən səyahətiniz və işdən kənar vaxtınızda etdiklərinizin şəkillərini paylaşa bilərsiniz, lakin, iş görüşməsinin məzmunu ilə bağlı fikirlər bölüşə və ya şirkəti mənfi təmsil edəcək şəkillərinizi paylaşa bilməzsiniz.

ƏLAVƏ MƏLUMATLAR
SUALLAR VƏ CAVABLAR
ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

# SOSIAL MEDIADAN MƏSULIYYƏTLI ŞƏKILDƏ ISTIFADƏ ETMƏK

BIZIM VƏ BIZNESIMIZIN ƏN YAXŞI TƏKLIFLƏRINI TƏQDIM ETMƏK ÜÇÜN SOSIAL MEDIADAN MƏSULIYYƏTLI ŞƏKILDƏ ISTIFADƏ EDIRIK.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Nüfuzumuz məsuliyyətli və səmimi davranmağımızdan asılıdır. Sosial media şirkətimiz haqqında məlumatı, mövqeyimizi, brendimizi və məhsul məlumatlarımızı paylaşmağa kömək edə bilər. Lakin, sadə bir səhv nüfuzumuza çox tez mənfi təsir göstərə bilər.

**MÜŞTƏRI ILƏ BAŞLAYIN**

Etdiyimiz hər şey nəzərimizdəki müştəri ilə başlayır

## BIZ NƏ EDIRIK

- Dəyərlərimizi və nüfuzumuzu qorumaq üçün özümüzü və şirkətimizi müsbət təmsil etmək üçün ehtiyatlı davranırıq
- Şəxsi və biznes əlaqələrini qarışdırmırıq
- Şirkətimizi və ya məhsullarımızı irəli sürərkən özümüzü bir işçi kimi təqdim edirik
- Sosial media təlimatlarımıza riayət edirik.

## BIZ NƏ ETMIRIK

- Sosial mediaya sərf edilən vaxtın işimizə mane olmasına imkan vermirik
- Qanun pozuntusu kimi qəbul edilə biləcək mənfi və ya səhv bəyanatlar vermirik
- Şirkətin Twitter kimi rəsmi sosial media hesablarından kənar Şirkəti təmsil etmirik
- Şirkətimiz, müştərilərimiz, təchizatçılarımız və ya kolleqalarımız haqqında məxfi, özəl və mülkiyyət məlumatlarını açıqlamırıq
- Şirkətimiz tərəfindən və ya onun adından şirkətimizin təsdiq etmədiyi məlumatları təsdiq etmiş kimi qələmə vermək
- Yerli qanunvericilik və ya normativlər tərəfindən icazə verilməyən və Qrup Rəqəmsal Şöbəsi tərəfindən təsdiqlənməyən məhsulların sosial mətbuatda satılması və ya tanıdılması.



# ŞIRKƏTIMIZ ILƏ BIRLIKDƏ DAHA GÜCLÜ VƏ DAHA YAXŞI OLURUQ

## BIZ INAM, ƏDALƏT VƏ DÜZGÜNLÜK UĞRUNDA ÇALIŞIRIQ


15 | Şirkət qeydlərinin və Şirkətlə bağlı uçot və açıqlamaların düzgünlüyünün təmin edilməsi
16 | Şirkətin resurslarından istifadə
17 | Əqli mülkiyyət
18 | Maraq toqquşmalarının qarşısının alınması
19 | Şəxsi məlumatların qorunması
20 | Məlumatların uğurla idarə edilməsi
21 | Məlumatların məxfi saxlanılması
22 | Məlumatların təhlükəsizliyinin təmin edilməsi
23 | Daxili məlumatlardan istifadə etməklə göstərilən ticarət fəaliyyətinin qarşısının alınması

# ŞIRKƏT QEYDLƏRININ VƏ ŞIRKƏTLƏ BAĞLI UÇOT VƏ AÇIQLAMALARIN DÜZGÜNLÜYÜNÜN TƏMIN EDILMƏSI

BIZ DÜRÜST, DƏQIQ VƏ OBYEKTIV ŞƏKILDƏ BÜTÜN MALIYYƏ VƏ QEYRI-MALIYYƏ MƏLUMATLARIMIZIN HESABATINI VERIR VƏ QEYDIYYATINI APARIRIQ.



## DOĞRU SEÇIM

**S:** Bu, hesabat dövrünün sonuncu həftəsidir. Əla nəticə göstərmək üçün, gələn həftəyə qədər hesabı verilməyəcək və çatdırılmayacaq satışları indi qeyd edə bilərəm?

**C:** Xeyr. Xərclər və gəlirlər düzgün dövrlərdə qeydə alınmalıdır. Satış razılaşması, malların verilməsi və satış qiymətinin təyin oluna bilməsi və yığıla bilməsi haqqında dəlillər olmayana qədər satışlar rəsmi olaraq tamamlanmış hesab edilmir. Ona qədər isə bu satışın hesabata daxil edilməsi yanlış təqdimat hesab olunacaq.

ƏLAVƏ MƏLUMATLAR | SUALLAR VƏ CAVABLAR | ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

## BU, NƏ ÜÇÜN VACIBDIR

Dürüst və tam maliyyə və biznes qeydlərini aparmaq daha yaxşı biznes qərarları vermək, resurslarımızı qorumaq və hüquqi və normativ tələblərimizə nail olmaq mənasına gəlir. Qeydlərin və hesabların saxtalaşdırılması və ya faktların yanlış təqdim olunması fırıldaqçılıqdır.

**MÜŞTƏRI ILƏ BAŞLAYIN**

Gördüyünüz işi keyfiyyətlə görün

## BIZ NƏ EDIRIK

- Bütün hesabatlarda, açıqlamalarda, proqnozlarda və təhlillərdə dürüst və dəqiq olmaq
- Məlumatın bəyanında bütün qanunlara, xarici mühasibatlıq tələblərinə və şirkət prosedurlarına riayət etmək
- Mümkün olan hər yerdə nağd əməliyyatlardan kənar olmaq Əgər alternativ yoxdursa, nağd əməliyyatı aparmaq üçün səlahiyyətin olmasına, əməliyyatın düzgün qaydada qeydə alınmış və sənədləşdirilmiş olmasına əmin olmaq
- Səyahət və xərc hesabatlarını təqdim edərkən və təsdiqləyərkən dürüst olmaq
- Şirkətimiz adından müqavilə üzrə öhdəliklərimizin düzgün formada təsdiq olunmasını təmin etmək
- Maliyyə hesabatlarının dəqiqliyi və ya tamlığı haqqında istənilən məsələni qaldırmaq.

## BIZ NƏ ETMIRIK

- Yanlış məlumatlar hazırlamaq və ya təqdim etmək
- Hesabat və ya qeydlərə qeyri-dürüst və ya aldadıcı məlumat daxil etmək
- Hər hansı bir əməliyyatın məqsədini yanlış təqdim etmək
- Qeydə alınmamış və ya düzgün təsvir edilməmiş vəsait yaratmaq
- Öncədən səlahiyyət verilmədən və müvafiq sənədlər olmadan şirkət aktivlərini satmaq, ötürmək və ya istifadə etmək
- Hesabat dövrləri arasında satış həcmini və ya mənfəəti yanlış şəkildə şişirtmək və ya dəyişmək
- Hər hansı bir şirkət qeydini səhv şəkildə düzəltmək və ya korlamaq
- Əməliyyatlarımız haqqında müştərilər və ya təchizatçıların qeyri-dəqiq və ya aldadıcı maliyyə bəyanatları hazırlamasına yol verən məlumatlar təqdim etmək.

# ŞIRKƏTIN RESURSLARINDAN ISTIFADƏ



## BIZ ŞIRKƏT RESURSLARININ DÜZGÜN VƏ MÜVAFIQ ISTIFADƏSINI TƏMIN EDIRIK.

### BU, NƏ ÜÇÜN VACIBDIR

Şirkət resurslarına şirkətin pulu, informasiya sistemləri (noutbuk və telefonlar kimi), avadanlıq (nəqliyyat vasitələri kimi), binalar, məlumat, intellektual mülk və şirkətin vaxtı daxildir. Bu resurslar bizə biznes məqsədləri üçün verilmişdir. Şirkət resurslarının qeyri-düzgün istifadəsinin biznesimizin gəlirliliyinə birbaşa təsiri vardır.

**İNAMLA MƏSULIYYƏT GÖTÜRÜN**

Məhsuldar şəkildə meydan oxuyun və özünüzü sorğulamağa açıq olun

### BIZ NƏ EDIRIK

- Şirkət resurslarını müvafiq, əsaslı və qanuna uyğun şəkildə istifadə edirik
- Şirkətin pulunu şirkətin maraqları üçün xərcləməyi təmin edirik
- Səfərlərdə və xərclərdə şirkətin siyasətlərinə riayət edirik
- Şirkət üçün etdiyimiz işlərin şirkətə aid olduğunu başa düşürük
- İstifadə etdiyimiz şirkət vaxtının hesabatını düzgün veririk
- E-poçt və telefon kimi şirkətin informasiya sistemlərindən yalnız əsaslı və icazəli şəkildə istifadə edirik
- Biznes partnyorlarımız kimi digər təşkilatlara mənsub mülkiyyət və resurslara hörmət edirik
- Şirkət resurslarının qeyri-düzgün formada istifadə edildiyini gördüyümz zaman, bunun barədə xəbər veririk.

### BIZ NƏ ETMIRIK

- Şirkət resurslarını şirkəti nüfuzdan salacaq məqsədlər üçün istifadə etmirik
- Şirkət resurslarını şəxsi mənfəət üçün istifadə etmirik.

### DOĞRU SEÇIM

**S:** Mən mühasib işləyirəm və mənim əsas vəzifələrimdən biri hesab-fakturaların ödənişə hazır edilməsidir. Hər ay mən məsləhətçi şirkətinə xidmət haqqı ödəyirəm, lakin şirkətin bizə hər hansı bir xidmət göstərib-göstərmədiyindən xəbərim yoxdur. Mən bu xidmət haqqını ödəməyə davam etməliyəm?

**C:** Qəbul etmədiyimiz xidmətlər üçün xidmət haqqının ödənilməsi şirkət resurslarının qeyri-düzgün istifadəsi deməkdir. Siz bu ödənişə icazə verən şəxsdən bunun nə üçün olduğunu soruşmalısınız. Əgər cavabdan razı qalmasanız, siz insan resursları meneceri ilə danışmalı və ola bilsin, maliyyə qrupunun üzvü ilə məsləhətləşməlisiniz.

ƏLAVƏ MƏLUMATLAR

SUALLAR VƏ CAVABLAR

ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN



# ƏQLI MÜLKIYYƏT

## DOĞRU SEÇIM

**S:** Biz tezliklə təqdim olunacaq yeni məhsul inkişaf etdirmişik. Bu məhsul bizim mövcud beynəlxalq brendlərimizdən birinin məhsul sırasının genişləndirilməsidir. Bilirəm ki, biz bu brendin müəllif hüquqlarına sahibik, odur ki, hansısa hüquqi yoxlamalara ehtiyac varmı?

**C:** Bəli. Hətta, sahibi olduğunuz brend adından istifadə etsəniz belə, sizin yeni məhsulunuzda digərlərinin hüquqlarını və mülkiyyət hüquqlarını poza biləcək loqo, şəkil və ya adlar kimi yeni elementlər ola bilər. Qrup Hüququ daxilindəki İP Qrupu ilə bütün yeni məhsul və ya reklam işlərini yoxlayın.

ƏLAVƏ MƏLUMATLAR

SUALLAR VƏ CAVABLAR

ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

## BIZ INTELLEKTUAL MÜLKIYYƏTIMIZI QORUYURUQ VƏ DIGƏRLƏRININ INTELLEKTUAL MÜLKIYYƏT HÜQUQUNA HÖRMƏT EDIRIK.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Bizim ticarət nişanlarımız, dizayn hüquqlarımız, patentlərimiz, müəllif hüquqlarımız və məxfi biznes məlumatlarımız əziyyətli işimizin nəticələrini qoruyur və bizə rəqabət üstünlüyü verir. Əgər intellektual mülkiyyətimiz yanlış məqsədlər üçün istifadə olunsa, bizim və müştərilərimizin maraqları zərər görəcəkdir.

**QARŞINA MƏQSƏD QOYARAQ ƏMƏKDAŞLIQ EDIN**

Həmkarlarınızı dinləyin və onların ekspertizasına hörmət edin

## BIZ NƏ EDIRIK

- Intellektual mülkiyyətimizi qoruyuruq və istənilən "imitasiya" məhsulları, saxta məhsullar və ya bizim intellektual mülkiyyət hüquqlarımızı pozan digər məhsullar haqqında xəbər veririk
- Digərlərinin intellektual mülkiyyət hüquqlarına hörmət edirik
- İstehsal etdiyimiz və ya inkişaf etdirdiyimiz bütün material və ya məhsulların intellektual mülkiyyət hüququnun bizə aid olduğunu təmin edirik.

## BIZ NƏ ETMIRIK

- Məhsullarımızı satarkən, təqdim edərkən və ya reklam edərkən müştərilərimizin digər məhsullar ilə əlaqələndirə biləcəyi adlardan, ticarət markalarından və ya digər dizayn elementlərindən istifadə etmirik
- Digərlərinin intellektual mülkiyyət hüquqlarını poza biləcək texnologiya, habelə, proqram təminatlarından istifadə etmirik.

# MARAQ TOQQUŞMALARININ QARŞISININ ALINMASI

## MÜNAQİŞƏYƏ NƏ SƏBƏB OLUR?

Maraqların toqquşması bir çox situasiyalardan baş verə bilər:

- Yoldaşınız, ailə üzvünüz və ya yaxın qohumunuz rəqiblərimizdən, təchizatçılarımızdan və ya müştərilərimizdən biri tərəfindən işə götürüldükdə
- İşçi və onun insan resursları meneceri romantik münasibətdə olduqda
- Qohumlar arasında hesabatlılıq xətti mövcud olduqda
- İşçinin, yoldaşın, ailə üzvünün və ya yaxın qohumun cari və ya potensial rəqib, təchizatçı və ya müştəridə maliyyə marağı olduğunda
- İkinci işin işçinin öz işini görməsinə mane olduğu və ya problemlər yaratdığı hallarda.

Maraqların toqquşmasının baş verdiyi bir vəziyyətdə olduğunuzu və ya ola biləcəyinizi düşünürsünüzsə, bunun haqqında insan resursları menecerinə məlumat verməlisiniz.

ƏLAVƏ MƏLUMATLAR

SUALLAR VƏ CAVABLAR

ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

ƏLAQƏLƏRIMIZ, MALIYYƏ SƏRMAYƏLƏRI, IKINCI IŞLƏR VƏ BIZNESIMIZƏ ISTƏNILƏN YOLLA TƏSIR EDƏ BILƏCƏK DIGƏR IMKANLAR HAQQINDA MƏLUMATLARI PAYLAŞARKƏN BÜTÖV VƏ ŞƏFFAF ŞƏKILDƏ DAVRANIRIQ.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Şəxsi münasibətlər və maraqların toqquşması şirkətin xeyrinə qərarlar vermək qabiliyyətimizə təsir edə bilər.

**QARŞINA MƏQSƏD QOYARAQ ƏMƏKDAŞLIQ EDIN**

Öz bilik və təcrübələrinizi digərləri ilə bölüşün

## BIZ NƏ EDIRIK

- Şəxsi münasibətlərin və ya maliyyə maaqlarının şirkətin xeyrinə olan maraqlarına təsir etməsinin və ya onunla toqquşmasının qarşısını alırıq
- Şirkətin maraqları ilə toqquşa biləcək istənilən şəxsi sərmayə qoyuluşlarını bəyan edirik və ya razılığını alırıq
- İstənilən potensial biznes imkanları və ya sərmayə qoyuluşları üçün satınalma proseslərinə riayət edirik.

## BIZ NƏ ETMIRIK

- Öz xeyrimiz və ya münasibətimiz olan bir şəxsin xeyri üçün vəzifəmizdən sui-istifadə etmirik
- Ziddiyyət hesab oluna biləcək hər hansı bir şəxsi münasibəti, əlaqəni və ya əmək münasibətlərini gizlətmirik
- Şirkətdən biznes imkanlarını beynəlxalq şəkildə nəzərə almamaq və ya gizlətmək hallarına yol vermirik.

# ŞƏXSI MƏLUMATLARIN QORUNMASI



## DOĞRU SEÇIM

**S:** İş yoldaşımın evinə sürpriz olaraq ad günü hədiyyəsi göndərmək istəyirəm. İnsan Resursları departamentindən onun ev ünvanını istədim, lakin onlar mənə bu məlumatı verməkdən imtina etdilər. Onlar mənə dedilər ki, bu məlumatı mənə verə bilməzlər, çünki, bu, məlumatların qorunması qaydasını pozacaq. Bu doğrudur?

**C:** Bəli. İnsan Resursları departamentinin iş yoldaşınızın icazəsi olmadan sizə onun ev ünvanını vermək səlahiyyəti yoxdur.

ƏLAVƏ MƏLUMATLAR | SUALLAR VƏ CAVABLAR | ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

BIZ ŞƏXSI MƏLUMATLARA HÖRMƏT EDIRIK VƏ ONLARA EHTIYYATLA VƏ HÜQUQI ÖHDƏLIKLƏRIMIZƏ UYĞUN OLARAQ YANAŞIRIQ.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Əməkdaşlarımız, müştərilərimiz, təchizatçılarımız və digərlərinin şəxsi məlumatlarını qoruyub saxlayırıq. Məlumat məxfiliyi qanunlarına uyğun hərəkət etdiyimizi təmin etmək üçün bu məlumatları qorumağa və hörmət etməyə borcluyuq. Bəzi şəxsi məlumatlar çox həssasdırlar və yalnız xüsusi ehtiyyatla hüquq normaları çərçivəsində emal edilə bilər.

**MÜŞTƏRI ILƏ BAŞLAYIN**

Gördüyünüz işi keyfiyyətlə görün

## BIZ NƏ EDIRIK

- Şəxsi məlumatları yalnız qanuni məqsədlər üçün toplayır və ya istifadə edirik
- Şəxsi məlumatı nəyə görə istədiymzi və onu necə istifadə edəcəyimizi izah edir və lazımi yerlərdə icazə alırıq
- Şəxsi məlumatları yalnız səlahiyyət verildiyi halda paylaşırıq
- Şəxsi məlumatları təhlükəsiz şəkildə saxlayırıq
- Şəxsi məlumatlara girişi məhdudlaşdırırıq
- Şəxsi məlumatları düzgün və yenilənmiş şəkildə saxlayırıq
- Mümkün qədər ən tez müvafiq vaxtda şəxsi məlumatları silir və ya məhv edirik.

## BIZ NƏ ETMIRIK

- Müvafiq qoruma olmadan şəxsi məlumatları digər ölkələrə ötürmürük
- İnsanlara məsuliyyəti anlamadan şəxsi məlumatları əldə etməyə icazə vermirik.

# MƏLUMATLARIN UĞURLA IDARƏ EDILMƏSI

NIZAMLAYICI VƏ HÜQUQI ÖHDƏLIKLƏRIMIZI YERINƏ YETIRDIYIMIZI GÖSTƏRƏN DƏYƏRLI MƏLUMATLARI ƏHATƏ ETMƏK ÜÇÜN BIZNES QEYDLƏRIMIZI ISTIFADƏ EDIRIK.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Biznes qeydləri istənilən formada ola bilər və həm şirkət daxilində, həm də biznes partnyorlarımız tərəfindən müxtəlif yollarla saxlana bilər. Qanun, nizamnamələr və biznes ehtiyaclarının tələblərinə uyğun olaraq məzmunundan və növündən asılı olaraq qeydləri müəyyən müddətə saxlamalıyıq.

**MÜŞTƏRI ILƏ BAŞLAYIN**

Qərar verən zaman məlumat və intuisiyalarınızı, o cümlədən instinkt və təcrübənizi birləşdirin

## BIZ NƏ EDIRIK

- Məsuliyyət daşıdığımız biznes fəaliyyətlərini ehityyatlavə düzgün formada qeyd edirik
- Məlumatları nizamlı, tanına bilən və əldə edilə bilən qaydada saxlayırıq
- Qeydlərin düzgün qaydada paylaşıla bilən halda saxlanılmasını təmin edirik
- Qeydlərin saxlanılması üçün bütün hüquqi və biznes tələblərinə əməl edirik
- Qeydləri vaxtaşırı yoxlamaq və saxlanılmasına artıq ehtiyac olmayan və ya qanuna uyğun qaydada (məlumatların qorunması qaydalarına riayət etmək də daxil olmaqla) silinməli olan qeydləri təhlükəsiz şəkildə silirik
- Davam edən məhkəmə prosesi və ya tənzimləyici araşdırma ilə əlaqədar qeydlərin silinməsinin dayandırılması haqqında istənilən tələblərə əməl edirik
- Qanuni sənədlərə hörmət edirik və saxlama dövrlərini qeydə alırıq.

## BIZ NƏ ETMIRIK

- Biznes qeydlərini görmələri lazım olmayan insanlar ilə onları paylaşmırıq
- Biznes qeydlərini onlara ehtiyacı olan insanların tapa bilməyəcəyi yerlərdə saxlamırıq
- Biznes qeydlərini yoxlamadan silmirik
- Təsnifat nişanlarına əhəmiyyət verməmə hallarına yer vermirik.

## DOĞRU SEÇIM

**S:** Mənə işi tərk edən iş yoldaşımın sənədləri və emailləri olan fayllar verilib. Sənədlərin bəziləri köhnədir və mənə onlar lazım deyil. Baxmayaraq ki, onlar köhnə müştəri ilə əlaqədardır, mən onları silmək istəyirəm. Bunu edə bilərəm?

**C:** Kolleqalarınız və insan resursları meneceriniz ilə bunları yoxlayın. Unutmayın, sənədləri silməzdən əvvəl onları saxlamaq üçün heç bir biznes və ya hüquqi səbəbin olmadığından əmin olmalısınız.

ƏLAVƏ MƏLUMATLAR

SUALLAR VƏ CAVABLAR

ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

# MƏLUMATLARIN MƏXFI SAXLANILMASI



## MƏXFI MƏLUMAT NƏDIR?

Məxfi məlumat nümunələrinə məhsul və ya proses inkişafı, satışlar, marketinq və maliyyə məlumatları, biznes planlar, rəhbər dəyişikliyi və şirkət alışları və birləşmələri haqqında məlumatlar aiddir. Məxfi məlumata həssas məlumatlar daxildir. Əgər məlumatın məxfi olub-olmadığından əmin deyilsinizsə, insan resursları menecerinizə müraciət edin.

ƏLAVƏ MƏLUMATLAR | SUALLAR VƏ CAVABLAR | ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

MƏXFI MƏLUMATLARI YALNIZ EHTIYACI OLAN ŞƏXSLƏR ILƏ PAYLAŞIRIQ.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Gündəlik olaraq məxfi məlumatları yaradır, istifadə edir və paylaşırıq. Özümüzün və şirkətin maraqlarını və nüfuzunu qorumaq üçün məxfiliyin qorunması önəmlidir.

**MÜŞTƏRI ILƏ BAŞLAYIN**

Qərar verən zaman məlumat və intuisiyalarınızı, o cümlədən instinkt və təcrübənizi birləşdirin

## BIZ NƏ EDIRIK

- Məxfi məlumatları ehtiyacı olan və ya bilmək hüququ olan şəxslər ilə paylaşırıq
- Məxfi məlumatları paylaşdığımız şəxslərin onlara tətbiq olunan məhdudiyyətləri başa düşdüklərini təmin edirik
- Lazım olduğu zaman əlavə təhlükəsizlik tədbirləri görürük, məsələn yaxşı parol və ya şifrə
- Səyahət edərkən və ya ictimai yerlərdə xüsusi ehtiyyatlı oluruq
- Biznes partnyorları ilə məlumatları paylaşarkən məlumatların açıqlanmaması razılaşmalarından istifadə edirik
- Digərlərinə aid məxfi məlumatlara hörmət edirik.

## BIZ NƏ ETMIRIK

- İctimai şəkildə mövcud olmayan məlumatları biznes səbəbi olmadan şirkət daxilindəki digər şəxslər ilə paylaşmırıq
- Biznes məqsədləri və ya qanun ilə bəyan edilməsi tələb olunan hallar istisna olmaqla məlumatları şirkət xaricindəki insanlara və ya təşkilatlara açıqlamırıq
- Hətta məlumatları birbaşa alsaq belə, rəqiblərimiz də daxil olmaqla digər şəxslər ilə əlaqəli məxfi məlumatları əldə etməyin və ya istifadə etməyin yollarını axtarmırıq
- Keçmiş işə götürənin məxfi məlumatlarını istifadə etmirik.

# MƏLUMATLARIN TƏHLÜKƏSIZLIYININ TƏMIN EDILMƏSI

## DOĞRU SEÇIM

**S:** Mənim təcili layihəm var və mən evdə işləmək üçün özümlə bəzi məlumatlar götürməliyəm. Mən bu məlumatları şəxsi bulud yaddaşı xidmətinə yükləmək istəyirəm. Bu, informasiya təhlükəsizliyi məsələsidir?

**C:** Bəli. Sizin bulud yaddaşı təchizatçınızın şirkət məlumatlarını təhlükəsiz saxlamaq üçün heç bir hüquqi öhdəliyi yoxdur. Siz bu məlumatları şirkət tərəfindən təsdiq edilməmiş bulud yaddaşı xidmətində saxlaya bilməzsiniz. İS Meneceri və ya İS Qrupu ilə danışın.

ƏLAVƏ MƏLUMATLAR

SUALLAR VƏ CAVABLAR

ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

ŞIRKƏTIMIZIN MƏLUMATLARINI, BIZNES PROSESLƏRINI VƏ SISTEMLƏRI YANLIŞ ISTIFADƏDƏN QORUYURUQ.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Biznesimiz, əməkdaşlarımız, müştərilərimiz, təchizatçılarımız və biznes partnyorlarımız haqqında məlumatlar bizens uğurumuzun əsasıdır və biz onu zədədən və icazəsiz girişdən, istifadədən, dəyişiklikdən və ya açıqlanmadan qoruyaraq təhlükəsiz şəkildə saxlamaq öhdəliyi daşıyırıq.

**İNAMLA MƏSULIYYƏT GÖTÜRÜN**

Cavabdeh olun və digərlərini cavabdeh tutun

## BIZ NƏ EDIRIK

- Şirkətin informasiya sistemlərini icazəsiz istifadədən və ya oğurluqdan qoruyuruq
- Yaxşı parollardan istifadə edirik
- Səyahət edərkən və ya digərləri ilə paylaşarkən həssas məlumatı qoruyuruq
- İnternet və ya veb xidmətlərdən istifadə edərkənhər zaman məlumatlarımızın təhlükəsizliyini təmin edirik
- Məlumatlarımıza, biznes proseslərimizə və ya informasiya sistemlərimizə yalnız əsaslı biznes ehtiyacı olanlara və müvafiq icazə alanlara veririk
- Məlumatlarımızı və informasiya sistemlərimizi düzgün şəkildə qoruyan təchizatçılar ilə işləyirik
- Məlumatlarımızın, biznes proseslərimizin və ya informasiya sistemlərimizin yanlış istifadə edildiyini gördüyümüz zaman xəbər veririk
- Həssas şirkət məlumatının itkisi barədə məlumat veririk.

## BIZ NƏ ETMIRIK

- Şirkətin e-poç və ya internet/veb xidmətlərindən (bulud xidmətləri, fayl-hostinqi, sosial media və s.) şirkətin nüfuzuna xələl gətirəcək və ya şirkətin icazəsi olmayan bir işə cəlb edəcək şəkildə istifadə etmirik
- Şirkətin informasiya sistemlərində təsdiq edilməmiş tətbiqetmələr və ya proqram təminatları yükləmirik
- Şirkətin informasiya sistemlərində təhlükəsizlik xidmətlərini qeyri-aktiv etmirik və ya ondan yan keçmirik
- Digərləri üçün xoşagəlməz sayılan və ya şirkəti hüquqi proseslərə cəlb edə biləcək hər hansı bir məlumata daxil olmaq, yadda saxlamaq və ya onu paylaşmağa yer vermirik.

## DAXILI MƏLUMATLARA NÜMUNƏLƏR NƏLƏRDIR?

- Dərc edilməzdən əvvəl maliyyə nəticələri
- İllik Hesabat və Hesablarımızın eskizinin məzmunu
- Əsas təşkilatı dəyişikliklər
- Fabriklərin bağlanması və ya digər yenidən qurma məlumatları
- Mümkün alışlar, silinmələr, ələ keçirmələr, birləşmələr və ya birgə müəssisələr haqqında xəbərlər.

ƏLAVƏ MƏLUMATLAR

SUALLAR VƏ CAVABLAR

ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

# DAXILI MƏLUMATLARDAN ISTIFADƏ ETMƏKLƏ GÖSTƏRILƏN TICARƏT FƏALIYYƏTININ QARŞISININ ALINMASI

ƏMIN OLMALIYIQ KI, DAXILI MƏLUMATIN QEYRI-QANUNI ÖTÜRÜLMƏSI QAYDALARINI POZMURUQ.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Əməkdaşlarımızın şirkətin maliyyə performansı və ya gələcək planları haqqında qeyri-ictimati məlumatlarına girişi ola bilər. Əgər bu məlumat səhmlərimizin qiymətlərinə və ya sərmayəçilərin qərarlarına təsir edə bilərsə, o zaman, bu, “daxili məlumat” hesab edilir. Daxili məlumatları (və ya “vacib daxili məlumatları”) istifadə edərək şirkətimizin səhmləri kimi qiymətli kağızları almaq və ya satmaq qanunsuzdur.

**İNAMLA MƏSULIYYƏT GÖTÜRÜN**

Fikrimi bildirə bilərəm

## BIZ NƏ EDIRIK

- Daxili məlumatları şirkətin içərisində saxlayırıq
- Məlumatların açıqlanması qaydalarımıza riayət edirik
- İmperial Brands səhmlərinin (əgər lazım olarsa) mübadilə edilməsinə icazəmizin olduğundan əmin oluruq.

## BIZ NƏ ETMIRIK

- Daxili məlumat əsasında İmperial Brands səhmləri və ya digər qiymətli kağızların ticarətini həyata keçirmirik Səhmlərə “Amerika Depozitar Səhmləri” (ADS və ya ADRs) daxildir
- Daxili məlumat əsasında şirkət daxilində və ya şirkətdən kənar hər hansı bir şəxsə şirkətin səhmlərini almağı məsləhət etmirik
- Digər şirkətlərə aid daxili məlumatlardan istifadə etmirik
- “Marketdən sui-istifadə” adlanan təcrübə, yəni İmperial Brands haqqında və ya digər ictimaiyyətə açıq səhmlər haqqında yanlış və qeyri-dəqiq məlumatları yaymaqla həmin səhmlərin qiymətinə təsir etmirik.



# BIZ MÜŞTƏRILƏR VƏ TƏCHIZATÇILAR ILƏ BIRLIKDƏ DAHA GÜCLÜ VƏ DAHA YAXŞI OLURUQ

## MÜŞTƏRILƏR, TƏCHIZATÇILAR VƏ BIZNES TƏRƏFDAŞLARI ILƏ ƏLAQƏLƏRIMIZ AÇIQ, GÜCLÜ VƏ ƏDALƏTLI OLMALIDIR.


**25** | Qanunsuz ticarətlə mübarizə

**26** | Ədalətli rəqabət

**27** | Rəqiblərlə bağlı məlumatların öyrənilməsi

**28** | Keyfiyyətli xidmət göstərilməsi

**29** | Marketinq işinin etibarlı şəkildə aparılması

**30** | Təchizatçılarla uğurlu tərəfdaşlıqların yaradılması

**31** | Rüşvətxorluq və korrupsiya ilə mübarizə

**32** | Hədiyyələrin verilməsi və qəbul edilməsi

**33** | Çirkli pulların yuyulmasının qarşısının alınması

**34** | Gömrük və vergi ilə bağlı tələblərə riayət edilməsi

**35** | Beynəlxalq sanksiyalara və ticarət məhdudiyyətlərinə riayət edilməsi

# QANUNSUZ TICARƏTLƏ MÜBARIZƏ

## QEYRI-QANUNI TICARƏT MƏHSULLARINA AIDDIR...

**Qaçaqmalçılıq.** Gömrük rüsumlu və ya rüsumsuz əsasda alınmış, lakin digər bazarlara vergi və ya gömrük qanunlarını pozaraq qanunsuz şəkildə qaçalmaqçılıqla gətirilmiş və satılan qanuni mallar. Həmçinin, bu məhsullar "qara bazar malları" olaraq tanınır.

**Saxtakarlıq.** Mövcud brendləri təqlid edən və ticarət nişanı hüquqlarını pozaraq istehsal edilən və/və ya satılan məhsullar. Adətən digər bazarlara qaçaqmalçılıq yolu ilə gətirilir və qanunsuz şəkildə satılır.

**"Qeyri-qanuni Siqaret Ticarəti".** Kiçik istehsalçılar vasitəsilə istehsal olunan siqaretlər (istehsal yerində minimum vergi ödəyən). Adətən digər bazarlara qaçaqmalçılıq yolu ilə gətirilir və qanunsuz şəkildə satılır.

ƏLAVƏ MƏLUMATLAR | SUALLAR VƏ CAVABLAR | ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

BIZ QEYRI-QANUNI TICARƏTIN ISTƏNILƏN FORMASINA QARŞIYIQ VƏ QEYRI-QANUNI TÜTÜN MƏLUMATLARININ BAZARLARA ÇIXIŞININ QARŞISINI ALMAQ ÜÇÜN QLOBAL OLARAQ DÖVLƏT ORQANLARI ILƏ ƏMƏKDAŞLIQ EDIRIK.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Qeyri-qanuni ticarətin mütəşəkkil cinayəti və terrorizmi maliyyələrşdirdiyinə dair açıq sübutlar vardır, buna görə də, bunu məhv etmək bizim əsas prioritetlərimizdən biridir. Biz yalnız yüksək keyfiyyətli məhsul satırıq və qeyri-qanuni ticarət bizim nüfuzumuzu zədələyir və intellektual mülkiyyətimizi oğurlayır.

## BIZ NƏ EDIRIK

- Yalnız təyinat bazarında yerli istehlak ilə və səyahət edən istehlakçıların ağlabatan tələblərinə uyğun miqdarda məhsul satırıq
- Yalnız dürüst və bütöv şəkildə işlədiyindən əmin olduğumuz, nüfuzlu və bizim Məhsul Təchizatı üzrə Uyğunluq Siyasətimizi qəbul edən müştərilər ilə işləyir və onlara məhsul satırıq
- Bütün məhsul təxribatı hadisələrini ətraflı incələmək və gələcək təxribatların yaranma təhlükəsini azaltmaq üçün müvafiq tədbirlər görürük
- Müştərilərimizin bizim qeyri-qanuni ticarətə qarşı olduğumuz haqqında məlumatlı olduğunu və qanuna və bizim standartlara riayət edirik məsuliyyəti daşıdıqlarını təmin edirik
- Brendlərimizi qorumaq üçün lazımi tədbirlərin yerinə yetirildiyini təmin etmək üçün təlimlər keçirmək, istintaqı dəstəkləmək və müsadirə edilmiş tütün məmulatlarının məhkəmə analizini aparmaq məqsədilə dünya üzrə dövlətlər və hüquq orqanları ilə birgə işləmək ilə yanaşı qeyri-qanuni ticarətə qarşı təlimatlar veririk
- Bütün müştərilərin məlumatlarını hər il yoxlayırıq.

**QARŞINA MƏQSƏD QOYARAQ ƏMƏKDAŞLIQ EDIN**

Həmkarlarınızı dinləyin və onların ekspertizasına hörmət edin

## BIZ NƏ ETMIRIK

- Şübhəli qeyri-qanuni ticarəti təyin etdiyimiz və ya məruzə etdiyimiz zaman özümüzü risk altına və ya təhlükəyə atmırıq
- Qeyri-qanuni ticarət ilə məşğul olan müştərilərə məhsul təchiz etmirik
- Məhsullarımızı qanuni tədarük zəncirindən kənara çıxarmaq ilə bağlı müştərilərimiz və ya təchizatçılarımız haqqında şübhələrə məhəl qoymamaq hallarına yer vermirik.

# ƏDALƏTLI RƏQABƏT

BIZ ƏDALƏTLI VƏ DÜRÜST RƏQABƏT APARMAQ VƏ BIZNESIMIZƏ TƏTBIQ OLUNAN ANTI-INHISAR VƏ RƏQABƏT QANUNLARINA ƏMƏL ETMƏK ÖHDƏLIYINI ÜZƏRIMIZƏ GÖTÜRMÜŞÜK.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Rəqabət qanunları azad bazarı gücləndirmək və istehlakçıları və biznesləri qorumaq üçün tərtib olunmuşdur. Bu qanunların mürəkkəb və ölkədən-öllkəyə fərqli olmasına baxmayaraq, biz onlara hörmət və əməl etməliyik. Bu qanunlara riayət etməməyin ciddi nəticələri ola bilər, habelə, böyük cərimələr, nüfuza ziyan və hətta, həbs olunma halları ola bilər.

**GƏLƏCƏYIMIZI QURUN**

Gələcək imkan və çətinlikləri proqnozlaşdırın

## BIZ NƏ EDIRIK

- Bizim bazara tətbiq olunan rəqabət qanunlarını anladığımızı və onlara əməl etdiyimizi təmin edirik
- Qrup Rəqabəti və Antiinhisar Siyasətini başa düşmək və onlara riayət edirik
- Rəqiblərimizdən müstəqil şəkildə işləyir və rəqabət aparırıq
- Qiymət, ticarət şərtləri və yeni məhsul təqdimatı kimi maliyyə cəhətdən həssas mövzuları rəqiblər ilə müzakirə etməkdən çəkinirik
- Rəqiblər ilə qarşılıqlı əlaqəni məhdudlaşdırmaq və onlar ilə hər-hansı bir razılığa girməzdən əvvəl hüquqi məsləhət alırıq
- Ticarət assosiasiyalarının görüşlərində yüksək səviyyədə ehtiyyatlı oluruq – hətta adi məlumat mübadiləsi belə rəqabət qanunlarını poza bilər
- Rəqiblərin qaldıra biləcəyi istənilən şübhəli və ya qeyri-müvafiq müzakirələrdən kənarlaşmağımızı təmin etmək və sonrasında bu halı məruzə edirik
- Aparıcı bazar mövqeyimiz olan yerlərdə, endirim, promosiya və ya ticarət proqramları kimi marketinq əməliyyatları və ya satış təşəbbüsləri yerinə yetirməzdən əvvəl, mövqeyimizdən sui-istifadə etməkdən çəkinmək və müvafiq qanunlara əməl etdiyimizi təmin etmək üçün hüquq komandaları ilə məsləhətləşirik
- Məlumat toplayarkən və ya mübadilə edərkən müvafiq rəqabət qanunlarına əməl edirik Zəhmət olmasa, bu məcəllənin Rəqiblərlə bağlı Məlumatlarının Öyrənilməsi hissəsinə baxın.

## BIZ NƏ ETMIRIK

- Aparıcı mövqeyimizdən ədalətsiz qaydada tətbiq edilən rəqabət qanunlarını pozaraq istifadə etmirik
- Rəqibləri bazardan məcburən kənarlaşdırmırıq və ya yeni rəqiblərin bazara daxil olmasının qarşısını almırıq
- Rəqiblər ilə aşağıdakılar kimi antirəqabət sövdələşmələri həyata keçirmirik:
  - Qiymətləri sabitləşdirmək
  - Tender saxtakarlığı
  - Bazarları, müştəriləri və ya məhsul kateqoriyalarını bölmürük
  - Təchizatçı, müştəri və ya distributoru boykot etmirik
- Heç bir qanuni təsdiq olmadan məlumatları rəqib ilə birbaşa və ya vasitəçi vasitəsilə paylaşmırıq
- Müvafiq əsasımız olmadığı halda, müştəri və distributorlarımızın yenidən satış apara biləcəyi ərazi və müştəri qruplarını məhdudlaşdırmırıq
- Müştərilər və ya distributorlara sabit və ya minimum yenidən satış qiyməti tətbiq etmir və ya onların mənfəət nisbətini və ya təklif edə biləcəkləri maksimum endirim səviyyələrini hökm etmirik (yerli qanunlar icazə verənə qədər).

ƏLAVƏ MƏLUMATLAR

SUALLAR VƏ CAVABLAR

ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN



# RƏQIBLƏRLƏ BAĞLI MƏLUMATLARIN ÖYRƏNILMƏSI

## RƏQIBLƏRLƏ BAĞLI MƏLUMATLARIN QƏBUL EDILMIŞ MƏNBƏLƏRI HANSILARDIR?

Aşağıda ümumi qəbul edilmiş rəqiblərlə bağlı məlumatların mənbələri verilmişdir:

- Mətbuat
- İnternet və şirkətin internet səhifəsi
- Nüfuzlu sənayə araşdırmaları
- İllik Hesabatlar
- Şirkət rəhbərlərinin ictimai çıxışları
- Dövlət orqanları ilə ictimaiyyətə açıq sənədlər
- Şirkət tərəfindən verilmiş elektron avadanlıq vasitəsilə satış nöqtəsində məlumatların toplanılması
- Müştərilə ilə söhbətlər (lakin, rəqiblərin məxfi məlumatlarını almaq məqsədilə xüsusi məqsədli söhbətlər istisna olmaqla).

ƏLAVƏ MƏLUMATLAR

SUALLAR VƏ CAVABLAR

ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

BIZ RƏQABƏT MÜHITINƏ NƏZARƏT EDIRIK VƏ MÜŞTƏRILƏRIMIZIN TƏLƏBLƏRINI QARŞILAMAQ ÜÇÜN BIZNESIMIZIN INKIŞAFI MƏQSƏDILƏ TRENDLƏRI ANALIZ EDIRIK.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Fəaliyyət göstərdiyimiz mühiti başa düşmək müştərilərimizin tələblərini qarşılamağa imkan yaradır, lakin, bu məlumatların qanuna uyğun şəkildə əldə olunduğunu və istifadə edildiyini təmin etməliyik. Rəqiblər ilə məlumatların paylaşılması, habelə vasitəçi vasitəsilə ciddi rəqabət qanunu pozuntusu ola bilər.

**GƏLƏCƏYIMIZI QURUN**

Hər zaman bir addım öndə olun

## BIZ NƏ EDIRIK

- Biz məlumatlarımızı düzgün və qanuna uyğun şəkildə əldə edirik
- Hər hansı bir məlumat mübadiləsi, habelə rəqiblərə məlumatın verilməsi və ya onlardan məlumat alınmasından (vasitəçilər və üçüncü tərəflər vasitəsilə də) əvvəl Hüquq Məsləhətçisinin, xarici hüquqi məsləhətçinin və ya Qrup Hüququnun razılığını əldə edirik.

## BIZ NƏ ETMIRIK

- Rəqiblərin ticarət sirlərini və ya digər məxfi məlumatlarını təkidlə tələb etmir və ya qəbul etmirik
- İctimai cəhətdən açıq olmayan məlumatlara daxil olmaq üçün sənaye casusluğu və ya gizli müşahidə aparmırıq
- Məxfi və ya maliyyə cəhətdən həssas məlumatları əldə etmək üçün rəqibin işçisini işə götürmürük
- Məxfi məlumatları əldə etmək üçün rəqibin müştəriləri və ya işçiləri ilə əlaqə saxlamırıq
- Rəqabət qanunlarını pozaraq rəqiblər ilə maliyyə cəhətdən həssas məlumatlar (satış məlumatları daxil olmaqla) mübadiləsi aparmırıq (vasitəçi və ya üçüncü tərəflər daxil olmaqla).



## DOĞRU SEÇIM

**S:** Normal təmsilçi tətildə olarkən mən onun əvəzinə satış ərazisini idarə edirəm. Müştərilərdən normal təmsilçinin bəzən kobud və faydasız olması haqqında şikayətlər qəbul etmişəm. Onlar məsələni şişirdirlər, lakin, mən bu hala qarşı etinasız yanaşmaq istəmirəm. Nə etməliyəm?

**C:** Kolleqalarınızla danışın və öyrənin görək, onlar da bu müştərilər ilə eyni məsələləri yaşayıblar yoxsa yox. Normal təmsilçi qayıtdıqdan sonra, fikirlərinizi onunla və insan resursları meneceri ilə açıq, dürüst və həqiqi üsulda paylaşın ki, onlar bu məsələni birgə həll edə bilsinlər.


ƏLAVƏ MƏLUMATLAR

SUALLAR VƏ CAVABLAR

ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN


# KEYFIYYƏTLI XIDMƏT GÖSTƏRILMƏSI

BIZ DAVAMLI OLARAQ IŞ PRAKTIKALARINI YOXLAYARAQ VƏ TƏKMILLƏŞDIRƏRƏK MÜŞTƏRILƏRIMIZƏ VƏ ISTEHLAKÇILARA YÜKSƏK KEYFIYYƏTLI MƏHSULLAR ÇATDIRIRIQ.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Bizim davamlılığımız, uğurumuz və nüfuzumuz həm müştərilərimizə, həm də istehlakçılara mükəmməl məhsullar və xidmətlər çatdırmağımızdan asılıdır.

**MÜŞTƏRI ILƏ BAŞLAYIN**

Gördüyünüz işi keyfiyyətlə görün

## BIZ NƏ EDIRIK

- İstehsal etdiyimiz hər şeydə və etdiyimiz hər işdə keyfiyyətə diqqət yönəldirik
- Biznes proseslərimizdə, xidmətlərimizdə və məhsul keytfiyyətində davamlı olaraq səmərəliliyin təkmilləşdirilməsi yollarını axtarırıq
- Təyin olunmuş proseslərə əməl etmək və onları qoruyub saxlayırıq
- Biznes partnyorlarımız, habelə, müştərilərimiz, təchizatçılarımız və üçüncü tərəf istehsalçılar ilə əlaqələrimizin standartlarımıza uyğun olduğunu təmin edirik
- Performans standartlarımızı təkmilləşdirmək üçün komanda işini həvəsləndiririk
- İstənilən standart və ya keyfiyyət məsələlərinin tez bir zamanda təyin olunmasını təmin etmək üçün effektiv nəzarət tədbirlərini təmin edirik.

## BIZ NƏ ETMIRIK

- Zəif standartları qəbul etmək və ya onlara etinasız yanaşmırıq
- Keyfiyyət ilə bağlı məsələni təyin etdikdən sonra hərəkət etməmə hallarına yer vermirik.



## DOĞRU SEÇIM

**S:** Mənim bazarımdakı marketinq və reklam qanunvericiliyi bizim BMS-dan daha zəifdir. Mən Beynəlxalq Marketinq Standartlarını (BMS) nəzərə almaya bilərəm?

**C:** Xeyr. Bizim BMS məhsullarımızın məsuliyyətlə marketinq edilməsini göstərir. Əgər olduğunuz bazarda daha zəif qanunlar və ya standartlar varsa siz BMS-nı tətbiq etməlisiniz.

ƏLAVƏ MƏLUMATLAR | SUALLAR VƏ CAVABLAR | ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

# MARKETINQ IŞININ ETIBARLI ŞƏKILDƏ APARILMASI

BIZIM MƏHSULLARIMIZ BÖYÜKLƏR ÜÇÜNDÜR VƏ MƏHSULLARIMIZ HAQQINDA YETKIN MÜŞTƏRILƏRIMIZ ILƏ MƏSULIYYƏTLI ŞƏKILDƏ ƏLAQƏ SAXLAYIRIQ.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Biz fəaliyyət göstərdiyimiz ölkələrdə məhsullarımızın marketinqini və reklamını oranın qanunlarına, praktika qaydalarına və könüllü razılaşmalarına müvafiq şəkildə məsuliyyətlə yerinə yetirmək öhdəliyi daşıyırıq. Biz istehlakçı reklamlarına / reklam materiallarına və fəaliyyətlərinə Marketinq Standartlarımızı (MS) tətbiq edirik. Yerli qanunvericiliyin daya yüksək standartlar tələb etdiyi hallar istisna olmaqla bizim MS-ı üstünlüyə malikdir.

**İNAMLA MƏSULIYYƏT GÖTÜRÜN**

Düzgün addım atdıqda töhfəm ədalətli şəkildə qiymətləndirilir

## BIZ NƏ EDIRIK

- Bütün tütün məhsullarımızın üzərində aydın şəkildə görünən sağlamlıq xəbərdarlığı edirik
- MS-a və bazarlarımızda mövcud olan yerli mədəniyyətlərə hörmət edirik
- Məhsullarımızı bütün qanunvericiliklərə və nizamnamələrə uyğun şəkildə təsvir edirik
- Bütün iddialarımızın doğru və əsaslandırılmış olduğunu təmin edirik
- Biznes partnyorlarımızın məsuliyyətlə marketinq etdiklərini təmin edirik.

## BIZ NƏ ETMIRIK

- Tütün məhsullarımızı 18 yaşından az şəxslərə və siqaret çəkməyənlərə reklam etmirik
- Azyaşlılara cəlbedici görünə biləcək şəkillər və ya məzmunlar istifadə etmirik
- Tütün məhsullarının istehlakının zərərsiz olduğunu iddia etmirik.



## TƏCHIZATÇILARIMIZIN YOXLANILMASI

Biz müntəzəm olaraq təchizatçılarımızı məhsul və ya xidmət uyğunluğu, qiymət, keyfiyyət, performans, güvənilirlilik və etibarlılıq kimi kriteriyalar daxil olmaqla obyektiv kriteriyalara əsasən yoxlayırıq.

ƏLAVƏ MƏLUMATLAR

SUALLAR VƏ CAVABLAR

ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

# TƏCHIZATÇILARLA UĞURLU TƏRƏFDAŞLIQLARIN YARADILMASI

BIZ BIZNES IŞLƏRINI PEŞƏKAR VƏ ETIK CƏHƏTDƏN DÜZGÜN FORMADA YERINƏ YETIRƏN TƏCHIZATÇILARI SEÇIR VƏ ONLAR ILƏ IŞ GÖRÜRÜK.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Uğurumuz etibarlı təchizatçılar ilə açıq, dürüst və ədalətli əməkdaşlıq yaratmaqdan və onu qoruyub saxlamaqdan asılıdır.

**QARŞINA MƏQSƏD QOYARAQ ƏMƏKDAŞLIQ EDIN**

Diktə etməyin, təsir edin

## BIZ NƏ EDIRIK

- Təyin olunmuş satın alma prosedurlarımıza əməl edirik
- Təchizatçıları seçərkən öncədən araşdırma yerinə yetiririk ki, onların praktikaları bizim nüfuzumuzu zədələməsin
- Bizim əsas prinsipimizin təchizatçılar ilə müqavilədə əks olunmasını təmin edirik
- Təchizatçılarımızı müvafiq standartları tətbiq etmələri üçün həvəsləndiririk
- Təchizatçılarımız və biznes partnyorlarımıza ədalətli və dürüst şəkildə yanaşırıq.

## BIZ NƏ ETMIRIK

- Təchizatçılarımızın davranış məcəlləsi və ya standartlarını pozan hesab etdiyimiz fəaliyyətlərini qəbul etmirik və ya görməməzlikdən gəlmirik
- Maraqların toqquşmasının və ya şəxsi ön fikirlərin təchizatçıları seçməyə və ya onlarla işləməyə mane olmasına icazə vermirik.

# RÜŞVƏTXORLUQ VƏ KORRUPSIYA ILƏ MÜBARIZƏ

## BIZ RÜŞVƏT VƏ YA KORRUPSIYAYA YOL VERMIRIK.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Biz biznesimizi düzgün şəkildə yerinə yetirməkdən qürur hissi duyuruq. Rüşvətxorluq və korrupsiya qanunlarına riayət etmək biznesi harada görməkdən asılı olmayaraq məcburidir və bu qanunların bəziləri sərhədlərdən kənarda da tətbiq oluna bilər. Rüşvətxorluq və korrupsiya qanunlarını pozmaq bir şəxs və əlaqədar şirkət üçün ciddi cinayətdir və böyük cərimələr və hətta, həbs ilə nəticələnə bilər.

**GƏLƏCƏYIMIZI QURUN**

Korrupsiya davranışlarında iştirak etməkdən imtina etməklə biznesimizi düzgün qaydada yerinə yetirərək nüfuzumuzu qoruya və inkişaf etdirə bilərik

## BIZ NƏ EDIRIK

- Korrupsiya riskinin olduğunu göstərən "qırmızı bayraqlar" qaldırırıq
- Yüksək korrupsiya riski olan bazarlarda əlavə ehtiyat tədbirləri görürük
- Dövlət nümayəndələri ilə iş görərkən xüsusi ehtiyat nümayiş etdiririk
- Bizim adımızdan işləyən məsləhətçilərin hərtərəfli yoxlamalardan keçdiklərini, rəsmi olaraq təsdiq olunduqlarını və standartlara müqavilə üzrə əməl etməli olduqlarını təmin edirik
- Bazarlarımızda rüşvət və ya işi tezləşdirmək üçün rüşvətlərin verilməsinin qarşısını aktiv şəkildə almağa çalışırıq
- İstənilən potensial korrupsiya ödənişi sifarişini və ya ödənişini məruzə edirik.

## BIZ NƏ ETMIRIK

- Yerli qanunvericilik və ya mədəniyyətdən asılı olmayaraq rüşvət təklif etmirik, ödəmirik, icazə vermirik və ya qəbul etmirik
- İşi tezləşdirmək üçün rüşvətlər təklif etmirik, ödəmirik və ya ödənilməsinə səlahiyyət vermirik
- Korrupsiya davranışına yol vermirik
- Digər şəxslərdən (distributorlarımız, məsləhətçilər və ya bizim adımızdan işləyən təmsilçilər kimi) bizim üçün korrupsiya ödənişi etmələrini tələb etmirik və ya buna icazə vermirik
- Biznesin işini təmin etmək, qoruyub saxlamaq və ya inkişaf etdirmək məqsədilə kiməsə dəyərli bir şey təklif etmirik və ya vermirik (məsələn, vergi və ya gömrük rüsumlarını azaltmaq məqsədilə ödənişlər)
- Korrupsiya kimi hesab ediləcək ödənişdən qaçmaq üçün özümüzü ziyan təhlükəsinin altına qoymuruq
- Korrupsiya fəaliyyətini məruzə etməmə hallarına yol vermirik.

## RÜŞVƏT NƏDIR?

- Rüşvət açıq şəkildə olmaya bilər. Bura pul, xidmət, hədiyyələr, həddindən artıq çox və ya əsaslandırılmamış əyləncə və digər oxşar təkliflər daxil ola bilər (kömək də daxil olmaqla). Əgər niyyət biznesi qorumaq və ya mühavizə etmə və ya üstünlük əldə etməkdirsə, bunlardan hər hansı birini vermək, təklif etmək və ya qəbul etmək rüşvət sayıla bilər.

## HƏVƏSLƏNDIRICI ÖDƏNIŞ

- Həvəsləndirici ödənişlər rüşvətin bir növüdür. Nümunə olaraq, dövlət işçisinə mövcud gömrük işlərini yerinə yetirmək (və ya sürətləndirmək) üçün verilən pul və ya mal.
- Məkan, yerli qanunvericilik və ya mədəniyyətdən asılı olmayaraq işi tezləşdirmək üçün rüşvətə heç vaxt icazə verilmir.
- Əgər işi tezləşdirmək üçün rüşvət verəməmənizin şəxsi hədələr ola biləcək vəziyyət yaradacağından şübhələnirsinizsə, dərhal bunun haqqında məlumat verməlisiniz.
- Öz təhlükəsizliyinizə birbaşa hədənin qarşısını almaq üçün ödəniş etməli olacağınız bir vəziyyətə düşsəniz, siz ödənişi etməli və yubanmadan bu məsələ haqqında insan resursları menecerinizə və Qrup Təhlükəsizliyinə xəbər verməlisiniz.

ƏLAVƏ MƏLUMATLAR
SUALLAR VƏ CAVABLAR
ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

# HƏDIYYƏLƏRIN VERILMƏSI VƏ QƏBUL EDILMƏSI



## “DÖVLƏT VƏ YA HÖKÜMƏT MƏMURU” KIMDIR?

“Dövlət və ya hökümət məmuru” anlayışının tərifi çox genişdir və ora aşağıdakılar daxildir:

- Bütün dövlət orqanlarının məmurları və işçiləri, habelə, yerli və regional vəzifəli şəxslər, hakimlər, gömrük və polis işçiləri
- Siyasi partiya üzvləri, siyasi partiyanın işçiləri və siyasi xidmətə namizədlər
- Beynəlxalq dövlət təşkilatlarının məmurları və ya işçiləri
- Dövlətin və ya dövlət tərəfindən idarə olunan biznesləri işlədən və ya orada işləyən şəxslər
- Kral ailəsinin üzvü
- Dövlət məmurlarının ailə üzvləri
- Məsləhətçilər kimi dövlət məmurlarını dəstəkləyən və ya onlara təsir edən şəxslər.

ƏLAVƏ MƏLUMATLAR | SUALLAR VƏ CAVABLAR | ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

BIZ HƏDIYYƏ VƏ QONAQLIQLARI BIZNES ƏLAQƏLƏRIMIZIN RIFAHI ÜÇÜN MÜBADILƏ EDIRIK VƏ HEÇ BIR QEYRI-DÜZGÜN MƏQSƏDLƏR ÜÇÜN ISTIFADƏ ETMIRIK.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Hədiyyə və qonaqlıqların mübadiləsi bizə daha güclü və daha yaxşı biznes əlaqələri yaratmağa kömək edir, nəzakətimizi göstərir və ya rifahı artırır. Lakin, əgər hədiyyə və qonaqlıqların təklif edilməsi və ya qəbul edilməsi öhdəlik yaradacaqsa və ya öhdəliyin olması təəssüratı yaradacaqsa, biz bunu etməyəcəyik. Hədiyyə və qonaqlıqların qeyri-düzgün mübadiləsi rüşvət olaraq görünə bilər.

**MÜŞTƏRI ILƏ BAŞLAYIN**

Qərar verən zaman məlumat və intuisiyalarınızı, o cümlədən instinkt və təcrübənizi birləşdirin

## BIZ NƏ EDIRIK

- Hədiyyə və qonaqlıqların iddiasız və müvafiq olmasını və əsaslı biznes məqsədinin olmasını təmin etmək
- İctimati və ya dövlət işçilərinə hədiyyələrin, köməyin və ya qonaqlıqların verilməsindən qaçırıq
- Maliyyə ilində istənilən bir şirkətdən qəbul edilən və ya ona verilən dəyəri 100 funtdan və ya dəyəri bazar limitini aşan hədiyyə və ya qonaqlıqlar üçün təlimatlarımızda yer alan qaydalara əməl edirik
- Hədiyyə və qonaqlıqları özümüzün hədiyyə və qonaqlıqlar reyestrində qeyd edirik.

## BIZ NƏ ETMIRIK

- Hədiyyə olaraq nağd pul və ya nağd pul ekvivalenti təklif və ya qəbul etmirik
- Qanunsuz hesab ediləcək heç nə təklif və ya qəbul etmirik
- İctimailəşərsə bizi narahat edə biləcək və ya şirkətin nüfuzuna xələl gətirə biləcək hər hansı bir şeyi təklif etmək və ya qəbul etmək.

## ÇIRKLI PULLARIN YUYULMASI ÜÇÜN "QIRMIZI BAYRAQLAR"

Mümkün çirkli pulların yuyulması fəaliyyətinə işarə edən şübhəli fəaliyyətlərdən ehtiyatlı olmaqla bərabər, aşağıda göstərilən müştərilərə nəzarət edin:

- Şəxsi və ya biznesləri haqqında anket məlumatlarını vermək istəməyən
- Böyük məbləğdə nağd pul istifadə edərək ödəniş etmək istəyən
- Alışın qiyməti və digər şərtləri ilə maraqlı olmadığı görünən
- Yaşayış və ya fəaliyyət göstərdikləri ölkədən fərqli ölkədə yerləşən bank hesabı ilə ödəniş almaq istəyən
- Ticarət və ya bizneslərinə aid olmayan və ya uyğun olmayan və ya keçmiş əməliyyatlarından tamamilə fərqli əməliyyatlar edən müştərilər.

ƏLAVƏ MƏLUMATLAR | SUALLAR VƏ CAVABLAR | ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

# ÇIRKLI PULLARIN YUYULMASININ QARŞISININ ALINMASI

BIZ ÇIRKLI PULLARININ YUYULMASI RISKINDƏN KƏNAR OLMAQ ÜÇÜN AKTIV FƏALIYYƏT GÖSTƏRIRIK.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Çirkli pulların yuyulması prosesi cinayət fəaliyyətindən əldə olunan pulların qanuna uyğun və ya qanuni mənbələrdən əldə olunması görüntüsü yaradan prosesdir. Bu ciddi cinayət fəaliyyətidir. Biz digərləri tərəfindən çirkli pulların yuyulması üçün istifadə olunmadığımızdan əmin olmalıyıq, əks halda buna görə məsuliyyət daşıya bilərik.

**İNAMLA MƏSULIYYƏT GÖTÜRÜN**

Fikrimi bildirə bilərəm

## BIZ NƏ EDIRIK

- "Müştərini Tanı" prosedurlarına əməl edirik
- Yalnız adətən biznes fəaliyyəti ilə məşğul olduğumuz və hərtərəfli yoxlamalara cəlb olunmuş müştərilər, distributorlar və digər bizneslər və ya individual şəxslərdən ödəniş qəbul edirik
- Müştərilərimizin şəxsiyyətini və qanuni fəaliyyətlərini təsdiq edən müəyyən olunmuş prosedurlarımız var
- Hər hansı bir potensial şübhəli ödənişlərin qəbul edilməsinin qarşısını alan təfərrüatlı proseslərimiz var
- Çirkli pulların yuyulması ilə əlaqədar əməliyyat növlərini tanımağın yollarını öyrənirik və bu cür hallardan şübhələndikdə və ya müşahidə etdikdə onları məruzə edirik.

## BIZ NƏ ETMIRIK

- Cinayət fəaliyyətindən gələn və ya gəlməsi mümkün olan nağd pul və ya onun ekvivalentlərini qəbul etmirik
- Qeyri-düzgün maliyyə əməliyyatlarının baş verdiyini göstərən istənilən "qırmızı bayraqlar"ı bilərəkdən və ya ehtiyatsızlıqdan görməməzlikdən gəlmək.

# GÖMRÜK VƏ VERGI ILƏ BAĞLI TƏLƏBLƏRƏ RIAYƏT EDILMƏSI

## BIZ GÖMRÜK VƏ VERGI QANUNLARINA VƏ NIZAMNAMƏLƏRINƏ RIAYƏT EDIRIK.



### DOĞRU SEÇIM

**S:** Mən yerli agenti bizim aksiz vergisi bəyannamələrini həll etmək üçün təyin etmək istəyirəm. Bunu etməzdən əvvəl nəyisə nəzərə almalıyam?

**C:** Bəli. Biz agentlərin, vasitəçilərin və ya məsləhətçilərin bizim adımızdan nələr edəcəyindən məsuliyyət daşıyırıq. Agent yoxlamadan keçməli və rəsmi olaraq təsdiq edilməlidir. Əməkdaşlıq şərtləri qeyd olunmalı və agent, vasitəçi və ya məsləhətçi davranış məcəlləsinə uyğun şəkildə hərəkət etmək üzrə təlimatlandırılmalıdır. Əgər əməkdaşlıq davam edəndirsə, yenidən təsdiq etmə yoxlamaları tələb oluna bilər. Həmçinin, yarana biləcək məsələlər haqqında agentin sizə necə məlumat verəcəyi açıq şəkildə təyin olunmalıdır.

ƏLAVƏ MƏLUMATLAR | SUALLAR VƏ CAVABLAR | ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

### BU, NƏ ÜÇÜN VACIBDIR

Bizim məhsullarımız bir neçə gömrük və vergi qanunlarına və nizamnamələrinə cəlb olunur. Biz onları başa düşməli və onlara tam əməl etməliyik.

**QARŞINA MƏQSƏD QOYARAQ ƏMƏKDAŞLIQ EDIN**

Öz bilik və təcrübələrinizi digərləri ilə bölüşün

### BIZ NƏ EDIRIK

- Vergi, vergi ödəmədən rəsmiləşdirmə və ya verginin dayandırılması kimi hallarla bağlı normativlərə əsasən, standart vergi ilə yanaşı məhsullarımız üçün ödənilməli olan idxal vergisi, əlavə dəyər vergisi, aksiz vergisi və s. kimi normativlərə əməl etmək
- Məhsulun həcmi və dəyəri daxil olmaqla məhvetmə və vergi düzəlişi sənədlərinin dəqiq tamamlandığını təmin edirik
- Sənədlərimizin yerli vergi və gömrük qaydalarına və nizamnamələrinə uyğun şəkildə hazırlandığını təmin edirik
- Məhsullarımızın yerli nümayəndələrin iştirakı ilə nəzarət edilən ərazədə məhv edildiyini və maliyyə qeydlərinin dəqiq yenilənməsini təmin edirik
- Qəbul edilən mallarda hər hansı bir fərqi və ya sənədlərdə qeyri-dəqiqlikləri müvafiq gömrük orqanlarına məruzə edirik
- Bütün bəyannamələrimizdə və sertifikatlarımızda dürüst, dəqiq və açıq oluruq
- Dövlət məmurları ilə işləmək üzrə qoyulan qaydaları və məhdudiyyətləri bilir və onlara əməl edirik.

### BIZ NƏ ETMIRIK

- Məhv etmə üçün olan məhsulları yeni və ya "yaxşı vəziyyətdə olan" məhsullar kimi hesab etmirik
- Vergi ödənişlərini ödəməmək və ya ödənişi etməmək üçün sənədləri dəyişdirmirik
- Biznes məqsədləri üçün səfər edərkən məhsul nümunələri aparmırıq
- Gömrük və ya vergilərdə standartlarımızın pozulması halları haqqında şübhələri qəbul etmir və ya onları görməməzlikdən gəlmirik.



## SANKSIYA NƏDIR?

Sanksiyalar ölkələrə görə və vaxtaşırı olaraq dəyişə bilər, lakin, onlar adətən, aşağıdakı məsələlər üzrə məhdudiyyətlər və ya qadağaları özündə birləşdirir:

- Müəyyən şəxslər və bizneslər ilə kommersiya fəaliyyətləri
- Sanksiya qoyulmuş ölkələrdən məhsulların idxalı
- Sanskiya qoyulmuş ölkələrə məhsulların ixracı
- Məhsulların sanskiya qoyulmamış ölkədən sanskiya qoyulmuş ölkəyə hərəkət etdirilməsi
- Sanksiya qoyulmuş ölkələr və ya həmin ölkələrdənki şəxslər və bizneslər ilə maliyyə əməliyyatları və ya fəaliyyətləri
- Sanksiya qoyulmuş ölkələrə yeni sərmayə qoyuluşları
- Sanksiya qoyulmuş ölkələrə səfər etmə
- Həmçinin, məhdudiyyətlər bizdən müəyyən məhsullar üçün ixrac lisenziyası əldə etməyi tələb edə bilər.

ƏLAVƏ MƏLUMATLAR

SUALLAR VƏ CAVABLAR

ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

# BEYNƏLXALQ SANKSIYALARA VƏ TICARƏT MƏHDUDIYYƏTLƏRINƏ RIAYƏT EDILMƏSI

BIZ BEYNƏLXALQ SANKSIYALARA VƏ TICARƏT MƏHDUDIYYƏTLƏRINƏ ƏMƏL EDIRIK.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Birləşmiş Millətlər Təşkilatı, Avropa Birliyi və digər individual ölkələr müəyyən şəxslərə, bizneslərə və ölkələrə ixrac etmə və ticarətə qarşı ciddi nəzarət tətbiq edirlər. Bu qaydaları pozma şirkətimiz və cəlb olunan şəxslər üçün cinayət cəzaları və cərimələri ilə nəticələnə bilər.

Amerika Birləşmiş Ştatlarının sanksiyaları xüsusilə ciddidir. ABŞ vətəndaşları və rezidentləri ilə birgə fiziki olaraq ABŞ-da olan xarici vətəndaşlar sanksiya qoyulan müəyyən ölkələr cəlb olunan fəaliyyətlərdə iştirak etməməlidirlər. ABŞ sanskiyaları, hətta, ABŞ daxilində olan bir şəxsin sanksiyalar tətbiq olunan ölkələr ilə biznes fəaliyyəti görmək məqsədilə telefon və ya e-poçt əlaqəsi qurmasına belə qadağa qoyur.

**QARŞINA MƏQSƏD QOYARAQ ƏMƏKDAŞLIQ EDIN**

Həmkarlarınızı dinləyin və onların ekspertizasına hörmət edin

## BIZ NƏ EDIRIK

- Bizim rolumuza və öhdəliklərimizə uyğun sanksiyaları və ticarət məhdudiyyərlərini başa düşürük
- Sanksiyalara və ticarət məhdudiyyətlərinə əməl edirik
- Uyuğunluq yoxlamasının yerinə yetirildiyini təmin edirik.

## BIZ NƏ ETMIRIK

- Beynəlxalq sanksiyaların və ya ticarət məhdudiyyətlərinin pozulması şübhələrini qəbul etmir və ya onarı görməməzlikdən gəlmirik
- Sanksiya və ya ticarət məhdudiyyətlərinin tətbiq edilib-edilmədiyini yoxlamağı kənara qoymuruq.



# İCMALARIMIZ ILƏ BIRLIKDƏ DAHA GÜCLÜ VƏ DAHA YAXŞI OLURUQ

BIZ YAŞADIĞIMIZ MÜHITƏ VƏ CƏMIYYƏTƏ HÖRMƏT EDIRIK. ƏTRAF MÜHITIN QORUNMASINA KÖMƏK ETMƏK VƏ CƏMIYYƏTƏ MÜSBƏT TÖHFƏLƏR VERMƏK ÜÇÜN ÖZ DƏYƏRLƏRIMIZI TƏTBIQ ETMƏYƏ ÇALIŞIRIQ.


37 | Ətraf mühitə hörmətlə yanaşma
38 | İcmalar daxilində töhfə vermə
39 | Hökumətlər və siyasi orqanlar ilə əlaqələr
40 | İnvestorlar, analitiklər və kütləvi informasiya vasitələri ilə ünsiyyət



## DOĞRU SEÇIM

**S:** Kiçik yerli bizneslər təzəlikcə yaxın ərazidə yerləşən fabriklərimizdən pis qoxu gəldiyi haqqında şikayət ediblər. Biz anormal bir qoxu hiss etmirik. Onların şikayətlərini rədd etməliyik?

**C:** Xeyr. Biz qonşuluqda olanların bütün şikayətlərinə cavab vermək və onları araşdırmaq öhdəliyi daşıyırıq. Siz ərazi üzrə ətraf-mühit idarəetməsi üzrə məsul şəxsi tapmalı və ona vəziyyəti izah etməlisiniz. Onlar bizim standartlara və təlimatlara uyğun olaraq araşdırma aparacaq və müvafiq qaydada məsələni cavablandıracaqlar.

ƏLAVƏ MƏLUMATLAR | SUALLAR VƏ CAVABLAR | ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

# ƏTRAF MÜHITƏ HÖRMƏTLƏ YANAŞMA

BIZ DAHA ÇOX ÇEVRƏ DOSTU IŞ ŞƏRAITI TƏQDIM ETMƏK ÖHDƏLIYINI ÜZƏRIMIZƏ GÖTÜRMÜŞÜK.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Hər birimizin mühitə olan təsiri və iqlim dəyişikliyinə olan tövhələrimizi azaltmaq üçün bir rolumuz vardır. Bu məhdud resurslardan daha çox məhsul əldə etməyə və əməliyyat səmərəliliyini və xərclərin idarəetməsini dəstəkləməyə kömək edir.

**GƏLƏCƏYIMIZI QURUN**

Dəyişiklikləri qəbul edin və innovasiyanı xoş qarşılayın: yenilikləri sınamağa və uğursuzluqlarınızdan dərs çıxarmağa açıq olun

## BIZ NƏ EDIRIK

- Ətraf-mühit təlimatları və standartlarına əməl edir və tətbiq edirik
- Yenidən istifadə olunacaq materiallara üstünlük verir və çevrə dostu qablaşdırma, məhsullar və iş şəraitləri inkişaf etdirir və bununla yanaşı, müştərilərimizin gözləntilərini və istehlakçı seçimlərini qarşılamağa davam edirik
- Tullantıları azaldır və mümkün olan yerlərdə yenidə istifadə olunancaq materialları istifadə edirik
- Su və enerjiyə qənaət edir və lazımsız səfərlərdən kənar oluruq
- Hava və suya edilən axıntıları və ya qeyri-adi tullantıları məruzə edirik
- Tədarük zənciri təsirlərini təkmilləşdirmək üçün təchizatçılarımız ilə birgə işləyirik.

## BIZ NƏ ETMIRIK

- Tullantıları ehtiyatsızlıqla atmırıq
- Ətraf-mühit siyasətlərimizin və ya standartlarımızın şübhəli və ya bilinən pozuntularını qəbul etmirik və ya görməməzlikdən gəlmirik.




## DOĞRU SEÇIM

**S:** Mən cəmiyyətimizdə ölümcül xəstə şəxsləri dəstəkləyən yerli xeyriyyə fəaliyyətinə qoşulmuşam. Onlar məndən maliyyə dəstəyi əldə etmə tədbirində xərraca çıxarmaq üçün hədiyyələr ianə etməyimi xahiş ediblər. Mən xeyriyyə cəmiyyətinə bəzi əşyalar verə bilərəm?

**C:** Bu qəbul etdiyiniz tələbin ölçüsündən və məzmunundan asılıdır. Kolleqalarınız sizə bazarda adətən nəyin baş verdiyini haqqında fikir formalaşdırmaq üçün kömək edə bilərlər və onların təcrübəsi sizə insan resursları menecerinə əsaslı tövsiyələr təklif etməyə imkan verəcək. İnsan resursları meneceriniz ianələriniz təsdiq etməli olacaqdır. Dəyərindən asılı olaraq, əlavə təsdiqlər lazım ola bilər. Xeyriyyə ianələri yalnız qeydiyyatdan keçmiş/rəsmi olaraq tanına xeyriyyə təşkilatlarına verilə bilər.

ƏLAVƏ MƏLUMATLAR | SUALLAR VƏ CAVABLAR | ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

# İCMALAR DAXILINDƏ TÖHFƏ VERMƏ

BIZ FƏALIYYƏT GÖSTƏRDIYIMIZ ICMALARA MÜSBƏT TÖVHƏ VERMƏK ÖHDƏLIYI DAŞIYIRIQ.

## BU, NƏ ÜÇÜN VACIBDIR

İcmalarımız daxilində müsbət tövhələr vermək işçi məşğuliyyəti, biznes əlaqələri və şirkətimizin nüfuzu üçün yaxşıdır. Bu, bizim cəmiyyətdə geniş rolumuzun bir hissəsidir. İqtisadə tövhələrimiz ilə yanaşı xeyriyyə fəaliyyətlərimiz də bizim dəyərlərimizi əks etdirir.

**İNAMLA MƏSULIYYƏT GÖTÜRÜN**

Öhdəlik öhdəlikdir

## BIZ NƏ EDIRIK

- İcmalara cəlb olunma təlimatlarına əməl edirik və onları tətbiq edirik
- İnsanların həyatını yaxşılaşdırmaq üçün ictimai layihələri dəstəkləyirik
- Daha geniş ictimaiyyətə kömək etmək üçün əməkdaşlarımızı könüllü işləməyə həvəsləndirir və buna şərait yaradırıq
- Əməkdaşlarımızın xeyriyyə maraqlarını dəstəkləyirik.

## BIZ NƏ ETMIRIK

- Rəsmi olaraq tanınmayan, qeydiyyatdan keçməmiş və ya idarə olunmayan ictimai layihələr, xeyriyyə fəaliyyətləri və ya təşkilatları ilə işləmirik
- İctimai sərmayələrdən və ya xeyriyyə ianələrindən məhsullarımızı və ya brendlərimizi tanıtmaq üçün istifadə etmirik
- Fərdi şəxsləri dəstəkləmirik
- Biznesimizin və ya xüsusilə azlıqlar, sağlamlıq, idman, incəsənət və mədəniyyət ilə əlaqəli xeyriyyət təşkilatlarının ictimai tənqid edilə biləcəyi layihələri dəstəkləmirik
- Vaxtlarını, pullarını və ya resurslarını vermək üçün digərlərinə güc tətbiq etmirik.



## DOĞRU SEÇIM

**S:** Məndən yerli siyasi partiyanın iclasına sponsor olmağımı xahiş ediblər. Bunu etməklə bizim nüfuzumuz artacaq və bu, bizə siyasi qərar verənlər ilə iş fəaliyyəti görmək imkanı yaradacaq. Bu işə davam edə bilərəm?

**C:** Bunun siyasi töhfə olması ehtimalı var. Bu, siyasətimiz və korporativ siyasi töhfələrə dair göstərişlərimizə əsasənnəzərdən keçirilməlidir.

ƏLAVƏ MƏLUMATLAR

SUALLAR VƏ CAVABLAR

ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

# HÖKUMƏTLƏR VƏ SIYASI ORQANLAR ILƏ ƏLAQƏLƏR

HÖKÜMƏTLƏR, NIZAMLAYICI ORQANLAR, SƏNAYE ORQANLARI VƏ DÖVLƏT MARAĞINI QORUYAN QRUPLAR ILƏ YALNIZ ÖNCƏDƏN ƏLDƏ OLUNMUŞ ICAZƏ ILƏ VƏ ŞIRKƏTIMIZIN MARAQLARI NAMINƏ ƏLAQƏ SAXLAYA BILƏRIK.

## BU, NƏ ÜÇÜN VACIBDIR

Hökümətlər, nizamlayıcı orqanlar, sənaye orqanları və dövlət marağını qoruyan qruplar ilə əlaqəyə girmək biznesimizin vacib və lazımi bir elementidir.

**QARŞINA MƏQSƏD QOYARAQ ƏMƏKDAŞLIQ EDIN**

Diktə etməyin, təsir edin

## BIZ NƏ EDIRIK

- Siyasi fəaliyyətimizin qanuniliyini təsdiq edirik
- Siyasi fəaliyyətlərinin təlim keçmiş işçilər və ya öncədən təsdiq almış siyasi məsləhətçilər tərəfindən yerinə yetirildiyini təmin edirik
- Siyasi partiyalar və siyasi namizədlərlə qarşılıqlı əlaqələr zamanı şirkətin qayda və siyasətlərinə əməl edin.
- Bütün biznes ilə bağlı siyasi fəaliyyətlərində neytrallğı təmin edirik
- Fərdi baxışlarımızın və fikirlərimizin şirkətin baxış və fikirləri kimi nəzərə alınmamasını təmin edirik
- İmperial Brands şirkətinin Direktorlar Şurasının öncədən icazəsini alaraq işçilərin siyasi fəaliyyət komitələrin və ya oxşar təşkilatların yaradılmasını dəstəkləyirik.

## BIZ NƏ ETMIRIK

- Tənzimləyicilər və ya xüsusi maraq qrupları ilə əlaqə və ya təsir üçün ödəniş edin
- Fərdi şəxs olaraq yerinə yetirdiyimiz istənilən siyasi fəaliyyətdə şirkəti təmsil etdiyimizi və ya şirkət adından çıxış etdiyimizi bildirmirik
- Fərdi siyasi fəaliyyətləri dəstəkləmək üçün şirkət resurslarından istifadə etmirik.



# İNVESTORLAR, ANALITIKLƏR VƏ KÜTLƏVI INFORMASIYA VASITƏLƏRI ILƏ ÜNSIYYƏT

BIZ INVESTORLAR, ANALITIKLƏR VƏ MƏTBUAT ILƏ BÜTÜN ƏLAQƏLƏRIMIZDƏ ƏSASLI MESAJLAR TƏQDIM EDIRIK.

## DOĞRU SEÇIM

**S:** Bu yaxınlarda xarici tədbirdə əsas məruzəçi kimi şirkəti təmsil etmək üçün dəvət almışam və İmperial Brands şirkətinin strategiyası və maliyyə performansı haqqında danışmaq istəyirəm. İlk öncə kimdənsə məsləhət almalıyam?

**C:** Bəli. Siz dəvət haqqında insan resursları meneceri ilə məsləhətləşməli və əmin olmalısınız ki, təklif ediləcək təqdimat materialları istifadə edilməzdən əvvəl İnvestorlar ilə Əlaqələr və ya Qrup Kommunikasiya komandası tərəfindən təsdiq olunmuşdur.

ƏLAVƏ MƏLUMATLAR

SUALLAR VƏ CAVABLAR

ÖZ NƏZƏR NÖQTƏNIZI BILDIRMƏK ÜÇÜN

## BU, NƏ ÜÇÜN VACIBDIR

Bizim nüfuzumuz peşəkar və etik davranışlarımızdan asılıdır. Dediyimiz və ya etdiyimiz hər bir şey və xarici maraqlı şəxslərin bizim haqqımızda söylədikləri bizim nüfuzumuza təsir edir.

Maraqlı şəxslər, maliyyə analitikləri, müştərilər və digər şəxslər fəaliyyətlərimiz, performansımız və maliyyə kitablarımız haqqında dəqiq və etibarlı məlumatların təminatı üzrə bizdən asılıdırlar.

**İNAMLA MƏSULIYYƏT GÖTÜRÜN**

Diqqətinizi daim razılaşdırılmış prioritetlərə cəmləyin

## BIZ NƏ EDIRIK

- Hər kəsə müvafiq və dəqiq məlumat üçün bərabər giriş təmin edərərək təqdim etdiyimiz məlumatın bütövlüyünü qoruyuruq
- İnvestorlar, analitiklər və mətbuat ilə yalnız təlim görmüş və icazəli işçilərimizin əlaqə saxladığını təmin edirik
- İstənilən mətbuat sorğusunu yerli əlaqə qurpuna və ya Qrup Kommunikasiyasına yönəldirik
- İstənilən investor və ya analitik sorğusunu baş ofisdəki İnvestorlar ilə Əlaqə komandasına yönəldirik.

## BIZ NƏ ETMIRIK

- Təlim görmüş və icazəli işçi olmadan şirkəti kənar şəxslərə təqdim etmirik
- Şəxsi və şirkətin baxışları arasında çaşqınlığın yaranmasına imkan vermirik.